RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 80 (8396) BAZAR, 26 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Beynəlxalq Valyuta Fondu Azərbaycanı pandemiyadan ən az zərər çəkəcək ölkələr sırasında görür

**Prezident İlham ƏLİYEV:** "Bu vəziyyətdən şərəflə çıxmağımız bir daha göstərəcək ki, biz bütün addımlarımızı xalqımızın, dövlətimizin maraqlarına uyğun atırıq"

Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozuna əsasən, pandemiya nəticəsində qlobal iqtisadiyyat 2020-ci ildə 3, Orta Şərq və Mərkəzi Asiyanın neft ixrac edən ölkələrinin iqtisadiyyatı 3,9 faiz azalacağı halda, Azərbaycan iqtisadiyyatı cəmi 2,2 faiz kiçiləcək. Bu o deməkdir ki, Orta Şərq və Mərkəzi Asiyanın neft-qaz ixrac edən 11 ölkəsinin içərisində Azərbaycan iqtisadiyyatı pandemiyadan ən az zərər çəkənlərin ilk üçlüyündədir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Azərbaycan da OPEC+ çərçivəsində neft hasilatını azaldır və aşağı neft qiymətlərindən itirir, sadəcə, Prezident İlham Əliyevin rəhbərliyilə qeyri-neft sənayesinin sürətli artımı və hökumətin səmərəli antiböhran tədbirləri hesabına ölkəmizdə iqtisadi tənəzzülün qarşısı alınır. "Təkcə onu demək kifayətdir ki, postsovet məkanında pandemiyadan əvvəl və sonra BVF-nin verdiyi iqtisadi artım proqnozları arasındakı ən az fərq olan ölkələrdən biri Azərbaycandır, yəni pandemiya başqalarına nisbətən bizim iqtisadi artıma daha az təsir edib. Çünki ölkəmizdə pandemiya ilə mübarizə büdcəsi təxminən 3,5 milyard manat təşkil edir və vaxtında antiböhran tədbirləri müəyyənləşdirilib, eyni zamanda, manatın sabitliyi üçün 3 milyard manatdan artıq vəsaitlə valyuta bazarına müdaxilə edilib. Postsovet məkanında yeganə olaraq Azərbaycan hökuməti milli valyutanın sabitliyini təmin etməklə əsas riskləri öz üzərinə götürüb və makroiqtisadi sabitliyi qoruyub. Yeri gəlmişkən, pandemiyanın təsirilə neft ixrac edən və tam üzən rejimə malik bütün ölkələrin valyutası devalvasiyaya uğramışdır", - deyən iqtisadçı onu da bildirib ki, pandemiyanın iqtisadiyyata təsiri ilə mübarizədə iki mərhələ olacaq. Hazırda böhranın dərinləşməsinin qarşısı alınır və sabitlik qorunur, ikinci mərhələdə iqtisadiyyatın bərpası başlayacaq.

Hazırda dünyadakı suveren fondlara təsirlərin üç istiqamətdə olduğunu deyən ekspertin fikrincə, aşağı neft qiymətləri suveren fondların gəlirlərini azaldır.

Ardı 4-cü səh.

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçiriləcək

Mayın 4-də videokonfrans vasitəsilə keçiriləcək Zirvə görüşü koronavirusa qarşı mübarizəyə həsr olunacaq

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusa qarşı mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçiriləcək.

Bu barədə AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, koronavirus pandemiyası şəraitində beynəlxalq həmrəyliyin gücləndirilməsi, dövlətlərin və beynəlxalq təşkilatların səylərinin səfərbər edilməsi mühüm əhəmiyyət daşıyır. Qoşulmama Hərəkatının üzv dövlətləri tərəfindən Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü yekdilliklə dəstəklənib.

Qoşulmama Hərəkatına 120 dövlətin üzv olduğunu nəzərə alaraq, Zirvə görüşü regional coğrafi təmsilçilik prinsipi əsasında Təmas Qrupu formatında keçiriləcək. BMT, Afrika İttifaqı, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq təşkilatların rəhbərliyi də bu Zirvə görüşündə iştirak edəcək.

Xatırladaq ki, 2019-cu il oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb.

Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilib.

BMT Baş Assambleyasının 2018-ci il 12 dekabr tarixli qətnaməsi ilə 24 aprel Beynəlxalq Multilateralizm və Diplomatiya Günü kimi qeyd olunur. Çoxsaylı beynəlxalq təşkilatların üzvü olaraq, Azərbaycan Respublikası fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi dəstəkləyir.

Aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının koronavirus pandemiyasına həsr olunmuş videokonfrans formasında fövqəladə Zirvə görüşü keçirilib. Azərbaycan Respublikası koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq səyləri dəstəkləmək məqsədilə könüllü əsasda Ümumdünya Səhiyyə Təşkilatının koronavirusa qarşı cavab tədbirləri fonduna 5 milyon ABŞ dolları dəyərində könüllü maliyyə ianəsi edib.

"Ümidvarıq ki, Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü koronavirusa qarşı mübarizədə üzv dövlətlərin səylərinin səfərbər olunmasına, həmrəyliyin və multilateralizmin güclənməsinə əhəmiyyətli töhfə verəcək", - deyə Hikmət Hacıyev vurğulayıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib.



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin rəsmi "Instagram" səhifəsində bununla bağlı etdiyi paylaşımda deyilir:

"Ən xoş və saf hisslərlə aşılanan, xeyirxahlıq, mərhəmət və şəfqətin təntənəsini təcəssüm etdirən mübarək Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm. İnanıram ki, bu müqəddəs ayda bütün dua və diləklərimiz qəbul olunacaq və Allah öz mərhəmətini dünyamızdan əsirgəməyəcəkdir. Hər birinizə möhkəm cansağlığı arzulayıram. Allah orucunuzu qəbul etsin!"

# Evdə qal, ASAN dəstək al

Karantin dövründə vətəndaş sorğularını cavablandıran yeni sistem 24 saat avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərir

Bir aydan artıqdır ki, karantin rejimində yaşayırıq. Vətəndaşların yalnız zəruri hallarda evdən çıxmasına icazə verilir. Bu zaman əməkdaşlara icazənin alınması üçün dövlət və özəl təşkilatlar tərəfindən icaze.e-gov.az portalına müraciət göndərilir.

Evdən çıxmaq istədiklərinə dair icazə əldə etmək üçün vətəndaşlar mobil nömrədən icazənin məqsədini bildirən xüsusi kodu və şəxsiyyət vəsiqəsinin seriya və nömrəsini SMS-lə 8103 qısa nömrəsinə göndərirlər. Bütün bunlar, əlbəttə ki, qlobal pandemiyadan az itki ilə çıxmaq, vətəndaş sağlamlığının qorunması üçün dövlətin həyata keçirdiyi tədbirlərin tərkib hissəsidir.

Ancaq bu hələ son deyil. Sistemdən istifadədə çətinlik çəkən vətəndaşlar üçün gücləndirilmiş rejimdə fəaliyyət göstərən "ASAN xidmət"in 9108 Çağrı Mərkəzi də istifadəyə verilib. Yəni SMS göndərməkdə çətinliyi və ya digər narahatlığı olan şəxs Çağrı Mərkəzinə müraciət edərək suallarına cavab tapa bilir. Mərkəz bu çətin karantin dönəmində xalqın xidmətindədir.

Gücləndirilmiş iş rejimində vətəndaş sorğularını cavablandıran "ASAN xidmət"in 9108 Çağrı Mərkəzində yaradılan şərait və əməkdaşların gündəlik iş fəaliyyəti ilə tanış olmaq qərarına gəldik.

Ardı 4-cü səh.

# İşığımız gur, suyumuz bol, yollarımız rahatdır

**Prezident İlham ƏLİYEV:** "Bütün sosial infrastruktur layihələri tam icra ediləcək"

COVID-19-un iqtisadiyyata vurduğu zərbəyə, dünya bazarında neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda bu il üçün nəzərdə tutulan sosial infrastruktur layihələri tam icra ediləcək. Bunu Prezident İlham Əliyev son iki ayda keçirdiyi tədbirlərdəki çıxışlarında dəfələrlə vurğulayıb.

Azərbaycan xalqını Novruz bayramı münasibəti ilə təbrikində dövlət başçısı demişdir: "Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur... Sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək".

Prezidentin vədi ilə işi həmişə olduğu kimi, yenə də vəhdət təşkil edir. Sözünün sahibi olan dövlət başçısı koronavirusun tüğyan etdiyi bir zamanda belə neçə-neçə sosial infrastruktur obyektini açmış, onların fəaliyyətinə xeyir-dua vermişdir. Bunların sırasında günün tələbləri ilə bağlı mart ayında Bakıda istifadəyə verilən "Yeni klinika" və apreldə Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi qeyd olunmalıdır.

Ardı 4-cü səh.

# Xalqımızın liderinə inamı və sədaqəti tükənməzdir

Bunu Azərbaycan Prezidentinə ünvanlanan təşəkkür məktublarından aydın görürük

Azərbaycan xalqı taleyüklü məsələlərin həllində daim dövlətin və hökumətin yanında olub. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində dövlət müstəqilliyini bərpa edərkən xalq üzləşdiyi siyasi, iqtisadi, humanitar böhranla əlaqədar Ulu Öndər Heydər Əliyevi köməyə çağırdı. Əlbəttə, xalq yaxşı bilirdi ki, məhz çətin günlərdə Ümummilli Liderin siyasi iradəsi, qətiyyəti istənilən problemi həll edə bilər. Ömrünü-gününü, eləcə də ictimai-siyasi fəaliyyətini xalqın rifahına həsr edən Ulu Öndər Heydər Əliyev həmin inamı, etibarı bütünlüklə fəaliyyəti boyu qazanmışdı.

Bu gün də xalqımızın və dövlətimizin müvəqqəti çətin günləridir. Baxmayaraq ki, hərtərəfli inkişaf etmiş Azərbaycan nəinki regionda, hətta Avropada da söz sahibidir, həmçinin bir sıra beynəlxalq enerji və nəqliyyat-kommunikasiya layihələrinin müəllifidir. Hazırda bütün dünya sanki COVID-19 koronavirus pandemiyasının qarşısının alınması kimi bir sınağa çəkilib. Gizli deyil ki, dövlətimizin bu pandemiyadan az itki ilə çıxması üçün hər cür mümkün vasitələrdən istifadə edilir.

Ardı 2-ci səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# Xalqımızın liderinə inamı və sədaqəti tükənməzdir

### Bunu Azərbaycan Prezidentinə ünvanlanan təşəkkür məktublarından aydın görürük



*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti İlham Əliyev xalqının ona olan güvəni qarşısında mətinliklə, əzmkarlıqla dayanaraq, onu "göydən gələn bəla"dan - koronavirus (COVID-19) pandemiyasından xilas etmək üçün ön sırada mübarizə aparır, yollar arayır. Şükürlər olsun ki, vaxtında görülən qabaqlayıcı tədbirlər də artıq öz müsbət və ürəkaçan nəticələrini verməyə başlayıb: hər gün yoluxanların sayı azalmaqda, sağalanlarınkı isə artmaqda davam edir. Bu da imkan verəcək ki, ölkə iqtisadiyyatına mənfi təsir göstərən karantin rejiminin qaydaları və qadağaları yavaş-yavaş yumşalsın, nəhayət, may ayında xalq bu bəladan uzaqlaşsın və milli müstəqilliyinin bərpasının növbəti ildönümünə hazırlaşsın.

### Xalq dövlətinə və onun başçısına güvənir

Dövlət başçısı İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciətlərinin cavabsız qalmamasının birmənalı şəkildə xalq-hakimiyyət birliyinin növbəti dəfə təcəssümü olduğunu dünya gördü, hətta təqdir edildi, təşəkkürlər eşidildi.

Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına respublikanın hər yerindən gələn təşəkkür dolu məktublar isə yalnız səmimiyyətin etirafı deyil, həm də dövlət başçısının hər sözünün xalq üçün daim qanun olmasından soraq verir. Həmin məktublardan sətirlər də bir daha təsdiqləyir ki, xalq dövlətinə və onun başçısına güvənir və inanır. Bu bəladan tezliklə çıxacaq, birlikdə həmrəylik nümayiş etdirərək iqtisadiyyatın bütün sahələrinə dəyən zərəri aradan qaldırılacaq.

Azərbaycan Prezidentinin ünvanına təşəkkür məktubu yazanların arasında Gəncədə məskunlaşmış kəlbəcərli gənclər də var. Kəlbəcər Rayon Gənclər və İdman İdarəsinin rəisi **Musa Məmmədovun**, eləcə də **Raul Məmmədovun, Ələkbər Sadıqzadənin, Xəyal Məmmədzadənin, Tural Abdullazadənin, Qədir İsmayılovun, Yaşar İsgəndərovun, Vüsal Nadirovun** və digərlərinin imzaladığı məktubda deyilir: "Hörmətli Prezident! Bəşəriyyətin koronavirusun törətdiyi problemlə üz-üzə dayandığı bir zamanda Siz əvəzolunmaz addımlar atdınız. Belə ki, Azərbaycanda vəziyyətin nəzarət altına alınması üçün vaxtında sosial izolyasiya tədbirləri ilə yanaşı Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birillik əmək haqqınızı həmin fonda ianə etməyiniz, pandemiyanın ölkə iqtisadiyyatına təsirinin azaldılması üçün maliyyə vəsaitinin ayrılması və həssas təbəqənin də maddi təminatı ilə bağlı verdiyiniz qərarlar bir daha göstərdi ki, Prezident öz xalqının daim yanındadır.

Cənab Prezident! Koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində atdığınız qətiyyətli addımlara, göstərdiyiniz diqqət və qayğıya görə biz - kəlbəcərli gənclər Sizə minnətdarlığımızı və sonsuz sevgimizi bildiririk. Allah Sizi və ailənizi qorusun! Bu çətin günlərdə ölkəmizi düşdüyü ağır vəziyyətdən az itkilərlə çıxaracağınıza inanırıq".

### "Azərbaycanın bugünkü inkişafı bədxahlarımızı rahat buraxmır"

Xocalı əhalisinin bir hissəsi Göygöl rayonu ərazisində məcburi köçkünlər üçün salınmış 600 ailəlik yeni qəsəbədə məskunlaşıb. Doğulduqları yurdları yerlə yeksan olunduqdan sonra burada məskunlaşmış xocalıların ömrünün ixtiyar çağlarını yaşayanlardan biri də Kosalar kəndində dünyaya göz açmış Kamran Məmmədovun ailəsidir. Xocalının işğalına kimi onun müdafiəsində dayananlardan biri kimi tanınan Kamran Məmmədov mərhum komandir Əlif Hacıyevin döyüş yoldaşlarından biridir. Dünyanı bürümüş koronavirus pandemiyasının Azərbaycanda qarşısının alınmasında dövlətin və hökumətin apardığı məqsədyönlü sosial siyasəti ürəkdən bəyəndiyini və hər kəsin tətbiq olunan karantin qayda-qanunlarına əməl etməyinin vacibliyini bildirən **Kamran Məmmədov** məktubunda yazır: "Cənab Prezident! Bu gün də Sizin xalqa, dövlətə hansı məhəbbətlə bağlı olduğunuzu görürük. Oğlum Aqil Məmmədov da həkimdir. Bu gün həkimlərimizin gecə-gündüzü yoxdur. Onlar xalqımızın sağlamlığı uğrunda özlərini hər an təhlükə ilə üz-üzə qoyurlar. Onların və eləcə də dövlət başçısının xalqımızı bu bəladan sağ-salamat qurtarması üçün fədakarlıqlarını görməmək nadanlıq olardı.

Hörmətli Prezident! Siz dövlət başçısı olandan həyatınız daim mübarizələrdə keçib. Ulu Öndər Heydər Əliyevin də həyatı sərt siyasi mübarizələrdə keçərək qranitləşmişdi. Azərbaycanımızın bu gün dünyada pandemiyaya qarşı mübarizədə ön sıralarda olması heç də təsadüfi deyil. Dünyada iqtisadiyyatına görə bizim dövlətdən də güclü, ölkələr var. Lakin onların istər qaçqınların yerləşdirilməsi, məskunlaşdırılması, istərsə də sosial həyat tərzinin bərpasında necə aciz qaldıqlarını gördük. Avropa qaçqınları qəbul edə bilmir, dəryalarda batırır, yaxud da onlar özləri səfalət içində aclıqdan məhv olurdular. Azərbaycan dövləti isə bir milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə biganə qalmayaraq, hər cür sosial infrastrukturla təmin olunan 100-dən artıq yeni yaşayış məntəqələri tikərək onları məskunlaşdırdı. Həmçinin həyat şəraitimizin tam təminatı üçün lazım olanı dövlət bu gün də edir.

Möhtərəm cənab Prezident! Sizin bu günlərdə televiziya çıxışlarınızın birində qeyd etdiyiniz kimi, Azərbaycanımızın bugünkü inkişafı bədxahlarımızı rahat buraxmır. Xaricdən ölkəmizə uzanan qara niyyətli əllər daxildə çaxnaşma salmağa çalışır, dövlət başçısının göstərdiyi inamlı mübarizəni görməməzliyə vurur, xalqımızı hakimiyyətə qarşı itaətsizliyə səsləyirlər. Bu, bir Azərbaycan vətəndaşı, xocalılı məcburi köçkün, nəhayət, ömrünün səksəninci fəslini yola salmış el ağsaqqalı olaraq məni hiddətləndirir! Bu gün bütün siyasi partiyalar ölkəmizdə bir araya gələrək dövlətin gördüyü tədbirləri alqışladığı halda nankorlar bundan da sui-istifadə etməyə çalışırlar".

### "Dünya xalqlarının həsədlə izlədiyi ölkəmizdəki müsbət nəticələr hər birimizi sevindirir"

Kamran Məmmədov məktubunda onu da qeyd edir ki, dünyada geniş yayılan koronavirus infeksiyası, təəssüf ki, Azərbaycanımızdan da yan keçmədi. Ən güclü ölkələr belə koronavirus pandemiyası ilə mübarizədə aciz qaldı: "...Şükürlər olsun ki, bir çox dövlətlərdən fərqli olaraq, Sizin siyasətiniz sayəsində Azərbaycan infeksiyanın yayılmasına qarşı tez reaksiya göstərdi: pandemiyanın təsirinin azaldılması istiqamətində mühüm addımlar atıldı, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkə daxilində xüsusi karantin rejimi tətbiq edildi. Xalqın rifahı və sağlamlığı üçün atdığınız mühüm addımlar artıq müsbət nəticəsini verməkdədir. Bu qayğınız üçün Sizə təşəkkür edirəm!"

Abşeron rayonundan **Səlimə Rüstəmovanın** məktubundan bəzi sətirlər: "Hörmətli cənab Prezident! Bir azərbaycanlı olaraq Sizə təşəkkür edirəm. Hazırda 200-dən çox ölkədə yayılmış koronavirusun bir çox dövlətlərdə qarşısının alınması çətinləşib. Belə bir vəziyyətdə Sizin operativ qərarlarınız və dövlətimizin göstərişləriniz əsasında gördüyü işlər sayəsində bu "gözəgörünməz ölüm"ə qarşı güclü mübarizə aparılır. Azərbaycanda yaşayan insanlara və xaricdə təhsil alan vətəndaşlarımıza olan qayğı və diqqətiniz üçün minnətdarıq. Biz Sizə inanırıq. Bir zaman Ulu Öndər Heydər Əliyev xalqımızı xilas etdiyi kimi, Siz də bizi Allahın izni ilə bu bəlalardan qoruyursuz. Bir gənc vətənpərvər olaraq Sizinlə qürur duyuruq".

Azərbaycan Prezidentinə ünvanlanmış məktublardan birinin müəllifi Bakı şəhər Yasamal rayonunda yaşayan Şahin Əliyevdir. Özünü gənc vətənpərvər kimi təqdim edən məktub müəllifi yazır: "Hörmətli cənab Prezident, koronavirus pandemiyasının dünyada geniş yayıldığı bir dövrdə Sizin rəhbərliyinizlə hazırlanan xüsusi qabaqlayıcı tədbirlər planı xalqımızın bu pandemiyadan mümkün qədər az can itkisi vermək və rifah halının qorunması məqsədini daşıyır. Bu, artıq öz bəhrəsini verməkdədir. Çünki dünya xalqlarının həsədlə izlədiyi ölkəmizdəki müsbət nəticələr hər birimizi sevindirir".

Məktubda daha sonra deyilir: "Güclü rəhbəri olan xalq heç zaman məğlub olmaz" misrası məhz Azərbaycan xalqına aiddir. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması ondan da çətindir. Siz, cənab Prezidentimiz, bu çətin vəzifəni öz çiyinlərinizdə daşıyır, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasını beynəlxalq tribunalardan tələb edirsiniz.

Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə müstəqil Azərbaycan Respublikasının vətəndaşı olaraq Sizə təşəkkür edirik, dövlətimizin bundan sonra da çiçəklənməsi və inkişafı uğrunda gələcək işlərinizdə nailiyyətlər arzulayırıq!"

### "Bu, müdrik atanın öz övladları üçün etdiyi böyük fədakarlıqdır"

Bakı şəhərinin Yasamal rayonundan daha bir məktub var. Mahirə Ələkbərova da gəncdir. Məktubunda qeyd edir ki, şəxsən mən və ailəm adından, cənab Prezident, Sizin bütün fəaliyyətinizi alqışlayır və dəstəkləyirik. Sizin son vaxtlar gəncliyə göstərdiyiniz diqqət, onların potensialından istifadəni ön plana çıxarmağınız xalqımızın ürəyincədir: "Axı gənclik enerji, pozitivlik simvolu və nümunəsidir. Gələcəyin gənclərə əmanət olması heç də təsadüfi deyilməyib. Bu gün gənclər dövlət və hakimiyyət strukturlarında yetərincə təmsil olunur. Sizin xalqımız üçün etdiyiniz şücaətləri hər zaman dəstəkləyirik. Nəinki mən, bütün Azərbaycan xalqı, o cümlədən də gənclik Sizin icra etdiyiniz və edəcəyiniz işlərin dəyərini çox gözəl anlayır və Sizə güvənir.

Hazırda Yer kürəsini öz çənginə alan COVID-19 virusu ilə bağlı ölkəmizdə hərtərəfli mübarizə təbliğatı aparılır. Bu, hörmətli Prezident, Sizin uzaqgörən siyasətinizdir. Əlbəttə, aparılan qabaqlayıcı tədbirlər və xalqın Sizə inamı sayəsində, "Biz birlikdə güclüyük" nidası altında bu pandemiyaya qalib gələcəyik.

Bir gənc olaraq iftixar və qürur hissi ilə demək istəyirəm ki, cənab Prezident, müasir Azərbaycan gəncliyinin formalaşması üçün həyata keçirdiyiniz ardıcıl və sistemli tədbirlər nəticəsində onlar hər bir sahədə inamla irəliləyir və mühüm addımlar atırlar. Möhtərəm Prezident, uca Yaradan Sizi, ailənizi və xalqımızı qorusun!"

"Mən **Mərdanova Aytac Asəf** qızı oxuduğum Odlar Yurdu Universitetinin gəncləri, özümün, dostlarımın, həmçinin də ailəmizin adından, hörmətli Prezident, Sizə təşəkkürümü bildirirəm".

Bu cümlələrlə başlayan məktubda daha sonra göstərilir ki, Azərbaycanın inkişafı, xalqımızın həyat səviyyəsinin daha da yaxşılaşması üçün dövlət başçısının apardığı uzaqgörən və strateji əhəmiyyət daşıyan çevik, praqmatik siyasət gəncləri də çox sevindirir: "Sizin biz gənclərə göstərdiyiniz yüksək atalıq qayğısı hər birimizdən daha böyük məsuliyyət tələb edir. Biz gənclər həmişə çalışırıq ki, Sizdən öyrənək, Sizin ətrafınızda daha sıx birləşək, bir sözlə, Sizə və Azərbaycanımıza layiq olaq! Cənab Prezident, həmişə Sizinləyik! Biz Sizin zirvələrə ucaltdığınız Azərbaycan gəncləriyik!

Bu gün dünyanı saran koronavirus təhlükəsinin ölkəmizdə yaradacağı ağır vəziyyətin qarşısını almaq üçün necə böyük işlər gördüyünüzü unutmaq mümkün deyil. Bu, müdrik atanın öz övladları üçün etdiyi böyük fədakarlıqdır. Bu xalqa olan böyük rəhbər sevgisidir. Allah Azərbaycan xalqını bu sevgidən məhrum etməsin! Allah Sizi, gözəl ailənizi qorusun! Biz gənclər Sizinləyik!"

İsmayıllı rayonundan **Amin Məmmədov** məktubunda yazır: "Hörmətli cənab Prezident! Mən bir gənc olaraq çox şadam ki, respublikamıza Sizin kimi alicənab, müdrik, uzaqgörən siyasi xadim rəhbərlik edir. Sizin rəhbərliyinizlə son zamanlar ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində iri addımlar atılır, vətənpərvər, dövlətçiliyə bağlı, yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşır. Biz Sizə güvənir, Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və ürəkdən bəyənirik.

Son vaxtlar dünyada geniş yayılmış COVID-19 pandemiyası əfsus ki, Azərbaycanda da yayılmağa başlayıb. Ölkəmizdə Sizin diqqətiniz və rəhbərliyiniz altında bu pandemiyanın geniş yayılmasının qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan sistemli addımlar göz önündədir. Biz xalq olaraq bu çətinliyin öhdəsindən birgə gələcəyimizə inanırıq. Vətəndaşların sağlamlığını düşünərək qabaqlayıcı tədbirlərin görülməsi, vəziyyətə uyğun lazımi addımların atılması, insanların sosial müdafiəsinin bütövlükdə təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə İsmayıllı gəncləri adından Sizə təşəkkür edir, bu məsuliyyətli və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq. Allah Sizin və ailənizin timsalında bütün Azərbaycan xalqını qorusun, amin!"

Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri, professor **Habil Qurbanovdan** gələn məktubda deyilir: "Əziz Prezidentimiz, xalqımızın dünyanı bürüyən koronavirus bəlasından xilas olması üçün göstərdiyiniz səylər, verdiyiniz tapşırıqlar, vətəndaşlara infeksiyadan qorunmaqla bağlı etdiyiniz müraciətlər bizi çox sevindirir. Koronavirusdan əziyyət çəkən ölkələrin əksəriyyətindən fərqli olaraq, Azərbaycanda iqtisadi böhranın yaşanmaması, hətta yeni sosial layihələrin icrası bir daha respublikamızın iqtisadi və maliyyə dayanıqlığının sübutudur".

Məktubda daha sonra Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqı kollektivinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə xalqın qayğısına bu qədər qalaraq işdən azad olunmaması, ixtisara salınmaması, əməkhaqlarının saxlanılması, işsiz kimi qeydiyyata alınmış şəxslərə 190 manat məbləğində vəsaitin ayrılması, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, kommunal ödənişlərdə güzəştlərin nəzərdə tutulması, digər sosial müdafiə üzrə ciddi addımların atılması barədə Prezident İlham Əliyevin qətiyyətli tapşırıqlarının dəstəkləndiyi bildirilir, dövlət başçısının ətrafında daha sıx birləşərək bu bəladan xilas olunacağı qeyd edilir. Əminliklə o da vurğulanır ki, müdrik və uzaqgörən siyasət, xalq-iqtidar birliyi sayəsində bu tarixi sınaqdan da uğurla çıxaraq dövlətimizin qüdrətini dünyaya bir daha sübut edəcəyik.

Koronavirus pandemiyasının ölkə iqtisadiyyatına təsirinin azaldılması üçün dövlət başçısının tapşırıqlarına əsasən çalışdığı müəssisəyə olunan maddi yardıma görə dərin minnətdarlığını bildirən "AzərGeoMaş" Elmi İstehsalat Müəssisəsinin kollektivi adından Əli Əliyev yazır: "20 ildən çox fəaliyyətimiz dövründə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, daha sonra möhtərəm Prezident, Sizin sahibkarlara göstərdiyiniz qayğı və diqqəti hər zaman hiss etmişik. İqtisadiyyatımızın belə çətin günlərində bizi unutmadığınıza görə Sizə minnətdarıq".

### "Şükürlər olsun: yoluxanlar az, sağalanlar isə gündən-günə artmaqdadır"

Azərbaycan Prezidentinin ünvanına təşəkkür məktubu yazan Samir İsmayılov Bakı şəhər Sabunçu rayonunun Maştağa qəsəbəsinin sakinidir. O, səmimi salamlarını çatdırmaqla yanaşı, qeyd edir ki, koronavirus pandemiyası 200-dən artıq ölkəni öz çənginə almış və bu bəla bizim ölkədən də yan keçməmişdir: "Ancaq çox sevindirici haldır ki, koronavirus pandemiyası respublikada ciddi yoluxmaya və çoxsaylı insan tələfatına səbəb olmamışdır. Bu da məhz ölkəmizdə qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı aidiyyəti orqanlara verilən tapşırıqlar və bununla bağlı xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədardır. Hörmətli Prezident! Ölkəmizdə koronavirusun geniş yayılma sürətinin qarşısının alınması bizi çox sevindirir. Siz daim Azərbaycan xalqının yanında olmusunuz. Bu çətin günlərdə də xalqımız bir daha bunun şahidi oldu. Mən də öz növbəmdə Sizə dərin minnətdarlığımı bildirirəm və birliyimizin daha da möhkəm olmasını diləyirəm".

**Balacayev İsmayıl Mustafa oğlu, İsmayılova Aişənur Rafiq qızı, Cəmilova Sevda Əşrəf qızı, Əsədullayev Zaur Ələddin oğlunun** imzaladığı məktub Şəki şəhərindən gəlib. Məktubda qeyd edilir: "Möhtərəm Prezident, xalqımıza, millətimizə daim göstərdiyiniz isti münasibət və qayğıya görə Sizə minnətdarlıq etməyi özümüzə borc bilirik Görünməyən təhlükəli düşmənlə mübarizədə atdığınız addımlar xalqımızı çox məmnun edir. Böyük ölkələrin bacara bilmədiyi işlərin öhdəsindən Azərbaycan Sizin sayənizdə məharətlə gəldi. Bu çətin günlərdə atılan qətiyyətli addımlar nəticəsində, çox şükürlər olsun ki, itkilərimiz minimum səviyyədədir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən tədbirlər də xüsusi alqışlara layiqdir. Həssas qrupa aid olan xəstələr üçün qanvermə aksiyasını çox müsbət qarşılayırıq.

Cənab Prezident, bu ağır günlərdə işləməyən insanlara birdəfəlik müavinətlərin verilməsi təqdirəlayiqdir. Onların sayının 600 min nəfərə çatdırılması isə Sizin humanist addımlarınızdan biridir. Allah Sizdən razı olsun. Bir vətəndaş olaraq daim Sizi dəstəkləyirik. Allah Sizi və gözəl ailənizi qorusun".

"Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunmuş, hazırda həyatımıza təsir edən koronavirus bu gün bütün ölkələri bürüyüb".

Bu fikirlər Azərbaycan Prezidentinə ünvanlanan çoxminli oxucu-vətəndaş məktublarından götürülən həyəcan dolu sətirlərdəndir. Həyat şəraitinə və inkişaf səviyyəsinə görə qabaqcıl hesab edilən ölkələrdə virusa yoluxanların və xəstəlikdən həyatını itirənlərin sayının artması hər gün müşahidə olunduğu halda bizdə isə tamamilə əksinədir: yoluxanlar az, sağalanlar, həyata qaytarılanlarımız isə gündən-günə artmaqdadır.

Azərbaycanın isə iqtisadi, siyasi, mədəni və beynəlxalq sahələrdə yürütdüyü düzgün və məqsədyönlü siyasət, Ümummilli Lider Heydər Əliyev ideyalarından bəhrələnən idarəçilik təcrübəsi, xalqımızın hər bir təbəqəsinə göstərilən sistemli və ardıcıl diqqət və qayğı nəticəsində biz bu bəladan, inşallah, az itkilərlə çıxmağı bacaracağıq. Bu, əlbəttə, təqdirəlayiqdir, dövlət başçısının xalqa olan məhəbbəti və sevgisinin parlaq təzahürüdür.

### Prezident-xalq birliyinin təcəssümü

Bakı şəhərindən dövlət başçısına ürək sözlərini yazan **Hüseyn Əlixanovun** məktubunda hər cümlə səmimiyyətdən soraq verir. Bu da xalq-iqtidar vəhdətinin nümunəsidir. Məktub müəllifi yazır: "Dünyanın bir parçası olaraq, ölkəmizin bu bəlanı yaşadığı ilkin dövrdə gördüyünüz təxirəsalınmaz təsirli tədbirlər, cənab Prezident, öz nəticəsini verməkdədir. Heç də təsadüfi deyil ki, insanların həyat və rifahının Sizin üçün ən önəmli olduğu barədə çıxışlarınızda dəfələrlə etdiyiniz qeydlər reallıqla üst-üstə düşür. Vaxtında verdiyiniz göstərişlər və qəbul etdiyiniz qərarlar sayəsində xalqımız bəzi Avropa ölkələrinin qarşılaşdığı faciəvi halla üzləşmədi.

Qonşu ölkələrlə sərhədlərdə gediş-gəlişin maksimum dərəcədə məhdudlaşdırılması, xarici ölkələrdən vətənə qayıtmaq istəyən vətəndaşlarımızın xüsusi reyslərlə sistemli və ardıcıllıqla daşınmasının təmin olunması, minlərlə şəxsin karantində saxlanmaqla testdən keçirilməsi, Azərbaycanın bütün şəhər və rayonlarında xüsusi karantin rejiminin tətbiqi, hər kəs tərəfindən bu qaydalara riayət olunmasına ciddi nəzarətin təşkili, yoluxmaya meyilli risk qrupuna aid insanlara, o cümlədən tək yaşayan yaşlılara fərdi qaydada zəruri xidmətlər və yardımların göstərilməsi, küçələrin, eləcə də fəaliyyəti zəruri hesab edilən idarə, müəssisə və təşkilatların yerləşdiyi binaların dezinfeksiya olunması və çoxsaylı digər tədbirlər virusdan yoluxma hallarının artmasının qarşısını aldı".

Məktubun diqqətçəkən məqamı: "Virusun ən çox yayıldığı ölkələrin bayraqlarının həmrəylik simvolu olaraq Heydər Əliyev Mərkəzinin binasının üzərində möhtəşəm formatda nümayiş olunması Sizlərin simasında Azərbaycan xalqının bütün dünya ilə həmrəyliyinin təcəssümüdür. Xalqımızın Sizin "Biz birlikdə güclüyük!" çağırışınıza qoşulması alqışa layiqdir.

Möhtərəm cənab Prezident, Sizin dərin məzmunlu çıxışlarınız və tövsiyələriniz xalqımızın əhvali-ruhiyyəsini yüksəklərə qaldırır, koronavirus deyilən bu bəlaya qısa müddətdə qalib gələcəyimizə zəmin yaradır. Ailəmiz adından Sizə dərin minnətdarlığımızı ifadə etməklə, xalqımızın rifahı və xoşbəxt gələcəyi naminə möhkəm cansağlığı, daha böyük uğurlar arzu edirik. Biz Sizinlə "birlikdə güclüyük!"

Bəli, məktublardan da görünür ki, bu çətin günlərdə hər birimizin sağlamlığının qorunması üçün bütün zəruri tədbirləri reallaşdıran dövlət başçısının, öz həyatlarını risk altında qoyaraq koronavirusa yoluxmuş xəstələrin müalicəsinə çalışan fədakar həkimlərimizin, eləcə də hələ özlərinə və özgələrinə laqeyd qalaraq küçələrdə maskasız və əlcəksiz gəzən və haqlı olaraq cərimələnən yaşlı, qoca və cavanlara vəziyyətin ciddiliyini aşılayarkən belə təhqir və təhdidlərə məruz qalan polislərimizin fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir!

Karantindəki şəxslərin saxlanma şəraitinin yüksək səviyyədə olması bir qədər də optimistliyə stimul verir. Xaricdə olan tələbələrimizin, müəyyən səbəblərdən orada qalmış vətəndaşlarımızın ölkəyə gətirilməsi, onlara diqqət və qayğı birbaşa Azərbaycan dövlətinin başçısı İlham Əliyevin adı ilə bağlıdır.

Nəhayət, Prezident-xalq birliyinin təcəssümü bu gün özünü daha qabarıq şəkildə koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınmasında həyata keçirilən tədbirlərin dəstəklənməsi ilə bağlı vətəndaşların dövlət başçısına ünvanladığı ürək sözlərindən ibarət məktublarda da öz əksini tapır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# “Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 395; 2019, № 1, maddə 31, № 2, maddə 204) 3-cü maddəsində “4 (dörd) il” sözləri “4 (dörd) il 9 (doqquz) ay” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Prezident İlham Əliyev Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın vəfatını dərin kədər hissi ilə qarşılayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın vəfatını dərin kədər hissi ilə qarşıladığını bildirib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu ağır itkidən kədərini bu sözlərlə ifadə edib:

“Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini dərin kədər hissi ilə qarşıladım.

Feyzavər Turan Alpsar böyük mütəfəkkirin ədəbi-elmi irsinin qorunub saxlanmasında mühüm rol oynamışdır. O, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə “Dostluq” ordeni, “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

***Bakı şəhəri, 25 aprel 2020-ci il”.***

# YAP-ın rayon və şəhər təşkilatları sədrlərinin iştirakı ilə videokonfrans şəklində növbəti müşavirəsi keçirilib

Aprelin 25-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının sədrlərinin iştirakı ilə videokonfrans şəklində növbəti müşavirəsi keçirilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin, genişmiqyaslı islahatların əhəmiyyətindən bəhs edib.

Hazırda dünyanın koronavirus pandemiyasına qarşı mübarizəyə səfərbər olunduğunu deyən Əli Əhmədov bildirib ki, bu istiqamətdə Azərbaycan dövləti və hökuməti sistemli tədbirlər həyata keçirir və bu tədbirlər Prezident İlham Əliyevin birbaşa nəzarətindədir. Onun sözlərinə görə, qabaqlayıcı, sistemli tədbirlər nəticəsində Azərbaycan koronavirus infeksiyasının ən az yayıldığı ölkələr sırasındadır.

Əli Əhmədov, həmçinin qeyd edib ki, Yeni Azərbaycan Partiyası da koranovirusa qarşı mübarizə çərçivəsində görülən işlərə fəal şəkildə qoşulub. Belə ki, Yeni Azərbaycan Partiyası Koronavirusla Mübarizəyə Dəstək Fonduna, ümumilikdə, təxminən 500 min manat ianə edib, “Sağlamlığımız milli həmrəyliyimizdədir!” aksiyası həyata keçirib.

Partiyanın bütün strukturları, o cümlədən rayon və şəhər təşkilatları əhalinin həssas təbəqəsinə aid olan ailələrə müntəzəm olaraq yardım və dəstək göstərirlər. Eləcə də Yeni Azərbaycan Partiyasının könüllüləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə birlikdə yaşı 65-dən yuxarı olan tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmətlər göstərirlər.

Müşavirədə qarşıda dayanan vəzifələr müzakirə edilib, partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# *Hikmət HACIYEV:* “Bəzi dövlətlərin siyasi rəhbərliyi qondarma “erməni soyqırımı” ilə bağlı təhrif olunmuş bəyanatlarla çıxış edir”

“Bəzi dövlətlərin siyasi rəhbərliyi qondarma “erməni soyqırımı” ilə bağlı tarixi həqiqəti əks etdirməyən və təhrif olunmuş bəyanatlarla çıxış edir”.

Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən verilən açıqlamada qeyd olunduğu kimi, həmin dövrdə qanunsuz erməni silahlı dəstələri tərəfindən 500 mindən artıq insanın kütləvi öldürülməsi hallarına etinasızlıq göstərilir. Eyni zamanda erməni daşnakların 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər regionlarında törətdikləri kütləvi qırğınların və vəhşiliklərin üzərindən sükutla keçilir.

Keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycanın Dağlıq Qarabağ regionunda aqressiv separatizm əməllərinə başlayan erməni terrorçu təşkilatları çoxsaylı terror əməlləri törətmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal olunmuşdur. Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlı qanlı etnik təmizlənməyə məruz qalmışdır. Ermənistan tərəfindən çox-



saylı hərbi cinayətlər, insanlıq əleyhinə cinayət və soyqırımı əməlləri törədilmişdir. 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində etnik mənsubiyyətinə görə mülki Azərbaycan əhalisinə qarşı törədilmiş misilsiz vəhşilik və soyqırımı bunun bariz nümunəsidir. Dünyanın 10-dan artıq ölkəsi Xocalıda törədilmiş cinayətləri soyqırımı əməli kimi tanımışdır.

Prezidentin köməkçisi vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı davam edən işğalı nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşamaq məcburiyyətindədir. Ermənistanın işğala əsaslanan destruktiv siyasəti Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktının prinsipləri əsasında ədalətli həllinə imkan vermir. Ermənistanın işğalçılıq siyasəti regionda sülh və təhlükəsizlik üçün başlıca təhdid mənbəyi olaraq qalmaqda davam edir.

Ermənistan silahlı qüvvələri tərəfindən Ermənistan-Azərbaycan qoşunlarının təmas xətti və iki ölkənin sərhədi boyunca mülki Azərbaycan əhalisini, o cümlədən uşaqları hədəfə almaq və öldürmək siyasətini davam etdirir.

Qondarma “erməni soyqırımı” ermənilərin və Ermənistanın törətdiyi cinayətlərin gizlədilməsi, Ermənistanın məzlum ölkə kimi təqdim edilməsi məqsədlərinə xidmət edir. Ermənistan və erməni lobbi dairələri tərəfindən tarixi faktlar məqsədyönlü şəkildə saxtalaşdırılır.

Hikmət Hacıyev qeyd edib ki, tarix tarixçilər tərəfindən araşdırılmalı və siyasi məqsədlər üçün istifadə olunmamalıdır. Türkiyə arxivlərin açılaraq 1915-ci il hadisələri ilə əlaqədar tarixi faktların tarixçilər tərəfindən araşdırılmasını təklif etsə də, Ermənistan bundan imtina edir.

Bəzi dövlətlər tarixin təhrif edilməsinə əsaslanan və 100 il bundan əvvəl baş verdiyi iddia olunan hadisələrə siyasi mülahizələrlə qiymət vermək əvəzinə, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə ədalətli qiymət verməlidir və Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalıdır.

# *Mehriban ƏLİYEVA:* “Bu qələbə mütləq baş tutacaq!”

Respublikamızda koronavirusla mübarizə sahəsində diqqətimizi çəkən əsas məsələlərdən biri ölkə rəhbərliyinin problemin həllində nümayiş etdirdiyi olduqca prinsipial və nümunəvi mövqedir. İlham Əliyevin son aylardakı fəaliyyətinə diqqət yetirsək, dövlət başçısının öz fəaliyyətini virusun Azərbaycanda yayılmasının qarşısının alınmasına və problemin sosial-iqtisadi sferaya təsirlərinin aradan qaldırılmasına yönəltdiyini görərik.



Bəli, Prezident İlham Əliyevin ilk gündən nəzarətində saxladığı bu problemlə əlaqədar vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronavirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və digər bu kimi tədbirlər dövlət başçısının problemi kompleks şəkildə diqqət mərkəzində saxladığını göstərir. Azərbaycan ictimaiyyəti əmindir ki, xalqımız İlham Əliyevin rəhbərliyi ilə bu sınaqdan da alnıaçıq, üzüağ çıxacaq.

### “Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun!”

Eyni zamanda Azərbaycan ictimaiyyəti bu çətin günlərdə əsl vətəndaşlıq təəssübündən çıxış edən Birinci vitse-prezident Mehriban Əliyevanın problemə olduqca həssas münasibətini müşahidə etməkdədir. Bunu Mehriban Əliyevanın son dövrlərdə koronavirus infeksiyası ilə bağlı xalqımıza müraciəti, eləcə də rəsmi “Instagram” səhifəsində etdiyi paylaşımlar təsdiq edir.

Xatırladaq ki, Birinci vitse-prezident Mehriban Əliyeva ilk dəfə martın 18-də koronavirus infeksiyası ilə bağlı xalqa müraciət edib.

Müraciətində bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağıran Mehriban Əliyeva eyni zamanda hər kəsi böyükləri qorumağa səsləyib: “Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir”.

Eyni zamanda Mehriban Əliyeva müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyinə əmin olduğunu bildirib.

### “Həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik”

Bu günlərdə ən böyük missiyanı isə həkimlərimiz yerinə yetirdilər. Məhz onların fədakarlığı, öz peşə borclarını layiqincə yerinə yetirmələrinin nəticəsi olaraq virusun Azərbaycanda geniş yayılmasına imkan verilmədi. Həmçinin yüzlərlə insan məhz həkimlərimizin sayəsində sağalaraq normal həyata qovuşdu. Son günlərdə xəstəlikdən sağalanların sayının yoluxanlara nisbətən üstünlük təşkil etməsi məhz həkimlərimizin əməyinin nəticəsidir.

Rəsmi “Instagram” səhifəsində tibb işçilərimizlə bağlı paylaşım edən Birinci vitse-prezident Mehriban Əliyeva yazıb: “Ən vacib və ən mürəkkəb vəzifəni bu gün bizim tibb işçilərimiz, bizim həkimlərimiz, tibb bacılarımız, texniki heyət, alim və laborantlarımız yerinə yetirirlər. Epidemiya ilə mübarizədə ön cəbhədə olan məhz onlardır. Onların hər an qəbul etdikləri qərarlar, peşəkar bilik və bacarıqları, fədakarlıq və şəfqəti bizim əsas silahımız və ümidimizdir.

Bu günlərdə biz həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik. Bu peşə həqiqətən də həmişə dərin zəka və yüksək bacarıq tələb edib. Amma bu gün bizim tibb işçilərimizdən həm də böyük şəxsi cəsarət tələb olunur. Onlar bu çətin sınaqdan şərəflə çıxırlar. Epidemiya ilə mübarizəyə tibb işçilərimizdən ibarət böyük ordu qoşulub. Onların sırasında kişilər və qadınlar, təcrübəli həkimlər və hələ çox gənc olanlar, görkəmli xadimlər və bu peşəyə yenicə qədəm qoymuş ali təhsil müəssisələrinin məzunları, tibb bacıları, texniklər və sanitarlar var. Onlar bizim həmvətənlərimizin - təhlükəli virusa yoluxan insanların həyatını xilas edirlər”.

Fədakarlıqlarına, əməklərinə, hər gün nümayiş etdirdikləri qəhrəmanlığa görə həkimlərin hər birinə dərin minnətdarlığını çatdıran Mehriban Əliyeva əmin olduğunu bildirib ki, onlar bu qorxunc epidemiyanın qarşısının alınması üçün əllərindən gələni edirlər və bundan sonra da edəcəklər.

### “Bir insanın laqeydliyi onlarca günahsız insanın ölümünə gətirib çıxara bilər”

Təcrübə göstərir ki, koronavirusa yoluxmamağın ən yaxşı yolu evdə qalmaqdır. Təsadüfi deyil ki, Azərbaycanda virusun göründüyü ilk vaxtdan sosial izolyasiya tədbirlərinə start verildi. Martın əvvəllərindən ölkədə bütün orta və ali məktəblər, uşaq bağçaları bağlanıldı. Daha sonra respublikamızda əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi tədricən daha da genişləndirildi, ticarət və ictimai-iaşə obyektlərinin fəaliyyəti tamamilə dayandırıldı.

Əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədilə aprelin 5-dən əlavə tədbirlərə start verildi. Bu tədbirlərə əsasən koronavirusun yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətləri müəyyən olundu.

Bütün bu addımları atarkən qarşıda duran yeganə məqsəd vətəndaşların sağlamlığı oldu. Nəticə etibarilə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə və virusun geniş yayılmasının qarşısını almağa imkan verdi.

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində koronavirus infeksiyasının Azərbaycan ərazisində geniş yayılmasının qarşısının alınması üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlərlə də bağlı paylaşım edib. Bu paylaşımda “Artıq bir neçə ölkənin faciəli təcrübəsi bəşəriyyətə koronavirus pandemiyası zamanı sağ qalmağın əsas prinsipini necə formalaşdırmaq lazım olduğunu göstərdi. Bu prinsip dramatik dərəcədə sadə və birmənalıdır: ya xalq karantin rejiminə əməl edir və hamı sağ qalır, ya da tövsiyələrə məhəl qoymur və çoxsaylı insan tələfatı qaçılmaz olur. Düşünün, cəmi bir insanın laqeydliyi onlarca günahsız insanın ölümünə gətirib çıxara bilər” yazan Mehriban Əliyeva hər kəsi dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq başa düşməyə və maksimum dərəcədə vətəndaş məsuliyyəti nümayiş etdirməyə çağırırdı. “Məhz bu cür, bir-birimizi qayğı ilə dəstəkləyərək, dözüm və anlayış göstərərək taleyin hökmü ilə üzləşdiyimiz qorxunc sınaqdan üzüağ çıxıb koronavirus üzərində qələbədən sonrakı həyat üçün hər kəsi qoruya bilərik”, - deyə Mehriban Əliyeva bildirirdi.

Məhz ölkəmizdə həyata keçirilən qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin və vətəndaşların ölkə rəhbərliyinin çağırışlarına səs verərək məsuliyyət nümayiş etdirmələrinin nəticəsidir ki, Azərbaycan koronavirus təhlükəsini dəf etməkdədir. Dövlətimizin koronavirus üzərində qələbəsinə isə lap az qaldı. Mehriban Əliyevanın qeyd etdiyi kimi, “Bu qələbə mütləq baş tutacaq!”

Reallıq da göstərir ki, başqa dövlətlərdəki ağır vəziyyətin Azərbaycanda təkrarlanması mümkün deyil. Çünki ölkəmiz koronavirusu kifayət qədər hazırlıqlı qarşıladığı üçün onun geniş ayaq açmasına imkan vermədi.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# İqtisadiyyat naziri Mikayıl Cabbarov Operativ Qərargahda brifinq keçirib

Məlumat verildiyi kimi, koronavirus pandemiyası (COVID-19) ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilib və aprelin 27-dən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına, bir sıra sahələrdə fəaliyyətin bərpa olunmasına qərar verilib.






AZƏRTAC xəbər verir ki, bununla əlaqədar aprelin 25-də Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqi keçirilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, sahibkarlıq fəaliyyətində davamlılıq ən vacib amildir. Hətta uzun müddət fəaliyyətdə olan biznes qurumları, qısa müddətli fəaliyyətsizlik nəticəsində ciddi geriləmələrlə üzləşə bilər. Məhz bu səbəbdən də, davamlılığın təmin edilməsi əsas məqsəd olmalıdır. Bu baxımdan, dövlətin dəstək tədbirləri ilə yanaşı, biznes subyektlərinin də yeni iqtisadi şəraitə uyğunlaşması vacib amildir. Aprelin 27-dən başlayaraq xüsusi rejimli karatin şəraitində məhdudiyyətlərin bir qisminin yumşaldılacağı dövrdə hər bir sahibkar başa düşməlidir ki, pandemiya uzun müddət sürə bilər və bu müddət insanların davranışından daha çox asılıdır. Həlledici amil isə fərdi gigiyena və sosial məsafənin qorunmasıdır. Sahibkarlar iqtisadiyyatın aidiyyəti sektoru üçün səciyyəvi olan sanitar-gigiyena qaydalarına ciddi əməl olunmasını təmin etməlidir. Yeni iqtisadi şərait özünəməxsus davranış qaydaları tələb edir. Biznesin davamlı fəaliyyəti və gəlirlərin stabilliyi də məhz yeni iqtisadi həyat tərzinə uyğunlaşmadan asılı olacaq. Bu qaydalara əməl edilmədikdə isə yenidən ciddi karantin şərtlərinin tətbiqi qaçılmaz olacaq. Bu da öz növbəsində, sahibkarların yenidən iqtisadi itkilərlə üzləşməsi, külli miqdarda maddi zərər və ya müflisləşmə ilə nəticələnə bilər.

Nazir qeyd edib ki, koronavirus pandemiyası çoxsaylı insan ölümünə səbəb olmaqla yanaşı, dünya ölkələrini bir sıra iqtisadi, maliyyə, sosial və səhiyyə problemləri ilə də üz-üzə qoyub. Dünyanın aparıcı ölkələri belə hazırda pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq, bu bəladan daha az itki ilə çıxmaq üçün yollar axtarır. Koronavirus pandemiyasından ölkə vətəndaşlarının qorunması, infeksiyanın yayılmasının qarşısının alınması üçün Azərbaycanda aparılan siyasət və həyata keçirilən səmərəli tədbirlər müsbət nəticələr verir. Prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə vaxtında görülən çoxşaxəli qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə koronavirusa yoluxma halları məhdudlaşdırılıb.

Vurğulanıb ki, düşünülmüş və məqsədyönlü siyasəti ilə nümunə olan Azərbaycan bu məsələdə də müsbət mənada fərqlənir.

M.Cabbarov bildirib ki, ilk növbədə sıx dövlət-vətəndaş həmrəyliyinə söykənərək insanların sağlamlığının qorunması ilə yanaşı, pandemiyanın milli iqtisadiyyata təsirlərinin azaldılması, zərər çəkmiş sahələrdə çalışan sahibkarlara və muzdlu işçilərə dəstək verilməsi, iş yerlərinin qorunması, əhalinin sosial müdafiəsinin təmin edilməsi, həmçinin postpandemiya dövründə yeni iqtisadi inkişaf modelinin tətbiqi üçün real zəmin hazırlamaq məqsədilə operativ addımlar atılır. Bu baxımdan Prezident İlham Əliyevin “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” 2020-ci il 19 mart tarixli sərəncamı müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısının Sərəncamının icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən aprelin 4-də təsdiq edilmiş Tədbirlər Planında iqtisadiyyata, məşğulluğa və sosial rifaha dəstək məqsədilə genişmiqyaslı tədbirlər əksini tapıb. Tədbirlər Planına uyğun olaraq, Azərbaycan hökuməti beynəlxalq müstəvidə baş vermiş problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində zəruri olan bütün addımları atır və hazırda bu tədbirlərin icrası davam etdirilir. Belə ki, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsi dövlət tərəfindən ödənilir, fərdi və mikro sahibkarlara maliyyə dəstəyi göstərilir. Bundan başqa, pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin verilməsi, sosial sığorta yükünün azaldılması, kredit faizlərinin subsidiyalaşdırılması və zəmanət alətlərinin təkmilləşdirilməsi nəzərdə tutulur. Artıq İqtisadiyyat Nazirliyi tərəfindən Vergi Məcəlləsi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklərlə bağlı təkliflər hazırlanıb və təkliflər paketinə daxil olan sənəd layihələri Milli Məclisə təqdim olunub.

İqtisadiyyat naziri virusun yayılmasının qarşısının alınmasının mümkünlüyünü, bunun üçün isə hər bir vətəndaşın, hər bir sahibkarın bu prosesə öz töhfəsini verməli və pandemiyaya qarşı mübarizənin ümumxalq xarakterini anlamalı olduğunu vurğulayıb: “Biz birlikdə güclüyük!”

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

# İşığımız gur, suyumuz bol, yollarımız rahatdır

## Prezident İlham ƏLİYEV: "Bütün sosial infrastruktur layihələri tam icra ediləcək"



*Əvvəli 1-ci səh.*

Azərbaycanda tibbi maska istehsalına başlanılması özündə bir çox mühüm məqamları ehtiva edir. Bu, ilk növbədə, əhalinin sağlamlığının qorunmasına yönəldilib. Bundan başqa, müəssisənin fəaliyyətə başlaması Azərbaycanda qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla yanaşı, həm də idxaldan asılılığı azaldacaq.

Mart ayında Prezident İlham Əliyevin iştirakı ilə Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı oldu.

Yenidən qurulan Pirşağı-Görədil-Novxanı-Sumqayıt sərnişin xəttinin açılışı ilə Abşeron dairəvi dəmir yolu tam istismara verildi. Bu dəmir yolu xəttinin istismar uzunluğu 91, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir.

İstifadəyə verilən xətt üzərində qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə 10 yeraltı avtomobil tuneli tikilib, ikisinin isə inşası davam edir. Piyadaların təhlükəsizliyini təmin etmək üçün ümumilikdə 25 yeraltı və yerüstü piyada keçidi inşa olunub, dəmir yolu, rabitə və işarəvermə sistemi yenidən qurulub. Sürətli qatarın hərəkətinin təhlükəsizliyini təmin etmək üçün zəruri işlər görülüb.

Mart ayında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan yaşayış kompleksinin də açılışı oldu. Açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər.

Burada 11 yaşayış binası inşa olunub. 4 bina 10 mərtəbəli, 7-si isə 7 mərtəbəlidir. Yaşayış kompleksində mənzillərin sayı 2962-dir. Mənzillər vətəndaşlara tam təmirli, mətbəx mebeli, fərdi kombi sistemi ilə təchiz olunmuş vəziyyətdə təklif edilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" fərmanı ilə yaradılan komissiyanın müraciəti əsasında hərbi qulluqçuların mənzillərlə təmin olunması məqsədi ilə kompleksdə tam təmirli 436 mənzil ayrılıb.

Kompleksdə 1920 şagird yerlik məktəb binası, habelə hər biri 90 yerlik olmaqla iki uşaq bağçası da inşa olunub.

Aprelin əvvəlində Prezident İlham Əliyev Bakı-Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən işlərlə tanış oldu. Dövlət başçısı Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilən yerüstü piyada keçidinin açılışında da iştirak etdi.

Bakı-Sumqayıt yolunun genişləndirilməsi layihəsi mühüm əhəmiyyət daşıyır. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaranan tıxac və avtomobillərin sıxlığının aradan qaldırılması üçün bu layihənin gerçəkləşdirilməsi olduqca gərəklidir. Belə ki, layihənin icrası ilə nəqliyyat vasitələrinin paytaxta rahat və təhlükəsiz giriş-çıxışı təmin olunacaq.

Tədbir zamanı dövlət başçısına məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrindən başlayaraq 14-cü kilometrinə - Masazır körpüsü deyilən yerə qədər yolların genişləndirilməsi işləri beşinci aydır davam edir. Məqsəd 20 Yanvar - "Şamaxinka" deyilən tunelin çıxışından başlayaraq mövcud dörd hərəkət zolaqlı avtomobil yolunu genişləndirmək idi. Bundan əlavə, "Xırdalan dairəsi" deyilən hissədə yeni tunelin inşasına başlanıb. Beləliklə, mərkəzdən gələn maşınlar yalnız Bakı-Quba-Rusiya Federasiyası istiqamətində hərəkət edəcəkdir.

20 Yanvar dairəsindən hərəkətin istiqaməti yol nişanları ilə ayrılacaq. Binəqədiyə, Biləcəriyə, Masazıra və Sumqayıta gedən avtomobillər sağ hissə ilə iki zolaqda hərəkət edəcəklər. Yolun Xırdalan dairəsi hissəsində yeni tunel və iki hərəkət zolaqlı yan yolu açılıb. Daha bir yenilik isə Şamaxıdan, Xocəsəndən və Lökbatandan gələn avtomobillərin birbaşa 20 Yanvar dairəsinə girişinin məhdudlaşdırılmasıdır. Bu hissədə işlərin artıq 80 faizi yerinə yetirilib.

Ölkədə içməli və suvarma suyu ilə bağlı da heç bir problem yoxdur. Keçən il qazılmış 345 subartezian quyusu yüzlərlə kəndin su ilə təminatını yaxşılaşdıracaq. Bu il isə 400-dən çox subartezian quyusu qazılacaq. Artıq bütün rayonların kəndlərinin adları siyahıda var və bu iş il ərzində investisiya proqramı çərçivəsində həll olunacaq.

Bu günlərdə isə "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışı olmuşdur. Belə ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq müasir memarlıq üslubunda, yüksək səviyyədə yenidən qurulmuşdur. Binanın ətrafında abadlıq işləri görülmüş, yaşıllıq sahələri salınmışdır.

Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev Azərbaycanın elektrik enerjisi sisteminin bir sıra digər obyektlərində də yenidənqurma işlərinin davam etdiriləcəyini bildirmişdir. Bu da bir daha ölkəmizdə sosial infrastruktur layihələrinin davamlı şəkildə həyata keçirildiyini təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Beynəlxalq Valyuta Fondu Azərbaycanı pandemiyadan ən az zərər çəkəcək ölkələr sırasında görür

## Prezident İlham ƏLİYEV: "Bu vəziyyətdən şərəflə çıxmağımız bir daha göstərəcək ki, biz bütün addımlarımızı xalqımızın, dövlətimizin maraqlarına uyğun atırıq"

*Əvvəli 1-ci səh.*

JPMorgan-ın hesablamalarına görə, qlobal pandemiyanın təsiri ilə dünyadakı suveren sərvət fondları təxminən 1 trilyon dollar dəyərində kapital itkisinə məruz qalıb. Körfəzdəki suveren fondların aktivlərinin bu ilin sonuna qədər 296 milyard dollar azalacağı proqnozlaşdırılır. Dünyanın ən iri suveren fondu - Norveçin Pensiya Fondu bu ilin ilk rübündə 113 milyard dollar, başqa sözlə, Azərbaycanın Dövlət Neft Fondunun həcmindən az qala üç dəfəyə qədər böyük dəyər itirmişdir. Qlobal şoklar nəticəsində bu ilin ilk rübündə Azərbaycanın Dövlət Neft Fondunun aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı qısamüddətli bazar dəyəri dəyişkənliyindən yaranan mənfi fərq isə 2,1 milyard manat olmuşdur. Dövlət Neft Fondunun investisiya portfelinin 80 faizindən çoxunu likvid və sabit gəlirli alətlər təşkil etdiyindən qlobal şokların fondun aktivlərinə təsirini minimuma endirmək mümkündür. Eyni zamanda fondun investisiya portfelinin 66 faizinin ABŞ dollarında olması və bu valyutanın real effektiv məzənnəsinin cari ilin əvvəlindən 8,5 faiz bahalaşması aktivlərin dəyəri üçün əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, Dövlət Neft Fondunun vəsaitlərinin 22,8 faizinin saxlandığı avronun da real effektiv məzənnəsi bu ilin əvvəlindən 3 faiz bahalaşıb.

"Dövlət Neft Fondunun istiqrazlar və pul bazarı alətlərinin 37,8 faizinin yerləşdirilmə müddətinin 1 ilə qədər olması imkan verir ki, likvidlik ehtiyacları qısa zamanda ödənilsin. İstənilən halda, Azərbaycanda xarici borclanmaya və devalvasiyaya getmədən böhranla daxili imkanlar hesabına mübarizə aparılması postpandemiya dövründə iqtisadi bərpa prosesinə müsbət təsir edəcək", - deyə icraçı direktor bildirib.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Dövlət başçısının yeni fərmanı hərbi səbəblərlə əlaqədar əlilliyin qiymətləndirilməsində şəffaflığın artırılmasına xidmət edir

## Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi yaradılır

Prezident İlham Əliyevin 24 aprel 2020-ci il tarixli fərmanı hərbi səbəblərlə əlaqədar əlilliyin qiymətləndirilməsində təkmilləşmə və şəffaflığın artırılmasına, hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə ilə bağlı toplanan məlumatların sistemliliyinin təmin edilməsinə xidmət edir.

Sənədə əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində 2021-ci il yanvarın 1-dək "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi yaradılacaq. Hərbi-həkim komissiyaları və həkim-uçuş komissiyaları olan dövlət orqanlarının həmin altsistemə çıxışı təmin olunacaq.

Altsistem yaradıldıqdan sonra 6 ay müddətində hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə ilə bağlı rəsmiləşdirilmiş bütün sənədlərdəki məlumatlar xəstəliklərin beynəlxalq təsnifatına uyğun şəkildə altsistemə daxil ediləcək. Həmçinin hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə ilə bağlı sənədlərin rəsmiləşdirildiyi gün həmin məlumatların altsistemə daxil edilməsi təmin olunacaq.

Beləliklə, nazirliyin tibbi-sosial ekspertiza xidməti hərbi səbəblərlə əlaqədar əlilliyi qiymətləndirilən şəxslə bağlı bütün tibbi, xəstəlik məlumatlarına altsistem vasitəsilə birbaşa çıxış əldə edəcək. Nəticədə müharibə səbəbi ilə əlilliyin qiymətləndirilməsi daha obyektiv aparılacaq və şəffaflıq təmin olunacaq. Vətəndaşların müxtəlif instansiyalara, o cümlədən müvafiq hüquqların və imtiyazların əldə edilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu sənədi kağız daşıyıcıda aparmasına zərurət qalmayacaq.

Bu, eyni zamanda, hərbi səbəblərlə əlaqədar əlilliyi olan şəxslərin müxtəlif imtiyazlardan faydalanmaq hüquqlarına baxılmasında da zəruri məlumatlara əlçatanlığı artıracaq. Eyni zamanda, sənədlərin kağız daşıyıcıda olması səbəbindən ehtimal olunan qanun pozuntusu riskləri də tam aradan qalxmış olacaq.

Yeni altsistem bu sahədə analitik təhlillərin aparılması və proqramların hazırlanmasında istifadə oluna biləcək müfəssəl məlumat mənbəyi rolunu oynayacaq.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.





# Evdə qal, ASAN dəstək al

## Karantin dövründə vətəndaş sorğularını cavablandıran yeni sistem 24 saat avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərir










*Əvvəli 1-ci səh.*

### Gücləndirilmiş rejim - müraciətlərə ofisdən və evdən də cavab verilir

Mərkəzə daxil olarkən diqqətçəkən ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsi oldu. Əvvəlcə xüsusi aparatla hərarət yoxlanılır, sonra əllər spirtlənir. Kompüter arxasında əyləşən əməkdaşlar xüsusi maska və tibbi əlcəklərdən istifadə etməklə bir-birindən aralı əyləşiblər.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, ölkəmizdə karantin rejiminin tətbiqi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi Daxili İşlər Nazirliyi ilə birgə "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"ni ərsəyə gətirib.

Vətəndaşlara sistemdən istifadə qaydaları və yaranan çətinliklərlə əlaqədar "ASAN xidmət"in 9108 Çağrı Mərkəzinə müraciət edilməsi imkanı yaradılıb.

Bəlli olur ki, fəaliyyətə başladığı müddətdən bu günə qədər ilk dəfə Çağrı Mərkəzi xidmətlərinin müasir texnologiyalardan istifadə edilməklə evdən, məsafədən həyata keçirilməsi də təmin edilib. Yəni vətəndaşlar üçün rahatlığın və əlçatanlığın təmin edilməsi məqsədilə Dövlət Agentliyinin müxtəlif struktur bölmələrinin, o cümlədən "ASAN xidmət" mərkəzlərinin əməkdaşlarının bəziləri inzibati ofislərindən, digərləri isə evdən olmaqla Çağrı Mərkəzinin fəaliyyətinə cəlb olunub və onlar zəruri texnoloji avadanlıqlarla təchiz ediliblər.

### Gün ərzində 15-17 mindən çox vətəndaş müraciəti

Mərkəzdə müxtəlif istiqamətlər üzrə vətəndaş müraciətlərini cavablandıran əməkdaşlar tərəfindən gün ərzində təxminən 15-17 mindən çox müraciət qəbul olunur. 9108 Çağrı Mərkəzi vasitəsilə müraciətlərin qəbulu xüsusi karantin rejimi müddətində nəzərdə tutulur.

Müraciətlər bu müddətdə həftənin bütün günləri həyata keçirilir. Eyni zamanda vətəndaşlarımızın daha asan məlumatlandırılması və çoxsaylı zənglərin idarə edilməsi üçün 24 saat avtomatlaşdırılmış rejimdə vətəndaşların sorğularını cavablandıran sistem fəaliyyət göstərir.

Maraqlıdır, görəsən gün ərzində daha çox hansı istiqamətlərlə bağlı müraciətlər olur?

Zənglərin ardı-arası kəsilmədiyi üçün operatorların da demək olar boş vaxtları olmur. Çağrı Mərkəzinin operatoru Şərqiyyə Həsənova deyir ki, ölkədə karantin rejiminin tətbiqi ilə bağlı 9108 Çağrı Mərkəzi xüsusi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Vətəndaşlar gün ərzində əlaqə saxlayıb müraciətlərini ünvanlayırlar. Müraciətlərin içərisində ən çox verilən suallar fiziki şəxslərin SMS icazəsi, yəni mesajların hansı formada göndərilməsi və hüquqi şəxslərin, fərdi sahibkarların icaze.e-gov.az portalından elektron icazələrin necə alınması ilə bağlı olur.

Bu arada Elnur Niftəliyev deyir ki, "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" fəaliyyətə başladıqdan sonra "Elektron hökumət" portalının xidmətlərindən biri olan "Əmək müqavilələrinin bildiriş sistemi" vasitəsilə 80 mindən çox əmək müqaviləsi bildirişi qeydə alınıb.

Onun sözlərinə görə, əməkdaşlar üçün icazələrin əldə edilməsi səbəbindən təşkilatlar qeyri-rəsmi formada çalışdığı əməkdaşlar ilə rəsmi əmək müqaviləsi bağlamaq məcburiyyətində qalıb: "İcazələr sistemi vətəndaşlarımızın sağlamlığını qorumağa xidmət etməklə yanaşı, şəffaflığın artırılmasına, kölgə iqtisadiyyatının qarşısının alınmasına da müsbət təsirini göstərib".

### Ən çox verilən suallar

Çağrı Mərkəzinin digər operatoru Aygün Əliyeva deyir ki, SMS icazələrlə bağlı ünvanlanan suallar daha çox hansı indeks üzrə və neçə saat müddətində yaşayış yerini tərk edilməsi ilə bağlı olur. Bununla yanaşı mərkəzə həm də hüquqi şəxslər, fərdi sahibkarların icazəsi ilə bağlı suallar daha çox ünvanlanan müraciətlər sırasındadır.

Mərkəzin daha bir əməkdaşı Hatəmi Selcan hava limanında vizaların verilməsi üzrə mütəxəssisdir. Karantin rejiminin tətbiqi ilə əlaqədar olaraq 9108 Çağrı Mərkəzində fəaliyyət göstərir. Mütəxəssisin fikrincə, gün ərzində daha çox 8103 qısa nömrəsinə göndərilən SMS və icaze.e-gov.az portalı üzərindən alınan icazələrlə bağlı vətəndaşların müraciətlərini cavablandırır. Ən çox ünvanlanan suallar içərisində "SMS-i göndərmişəm, avtomobilim üçün də SMS göndərməliyəm" və ya "mən SMS-i mütləq öz adıma olan nömrədən göndərməliyəm" kimi suallar daha çox olur.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan İnnovasiyalar Mərkəzinin əməkdaşı Sona Allahverdiyeva xüsusi karantin rejimi ilə əlaqədar olaraq 9108 Çağrı Mərkəzində çalışır. Vətəndaşların 8103 qısa nömrəsinə göndərdikləri SMS və e-icaze.e-gov.az portalı ilə bağlı daxil olan sualları cavablandıran Sona xanım deyir ki, gün ərzində 100-dən artıq zəng qəbul edir. Sualların əksəriyyəti digərlərində olduğu kimi, SMS icazələri ilə bağlı olur.

### Vətəndaş məmnunluğu və şəffaflığın təmini

Çağrı Mərkəzində apardığımız müşahidə, əməkdaşların operativ cavabları, nəzakətli davranışları bizdə xoş təəssüratlar yaratdı və onlara işlərində uğurlar arzulayaraq mərkəzi tərk edirik.

Göründüyü kimi, ölkəmizdə mövcud olan müasir elektron texnologiya vasitəsilə karantin rejimində də vətəndaşlara operativ xidmət göstərilir. Bu da Azərbaycan dövlətinin vətəndaş-hökumət münasibətlərində çeviklik, şəffaflıq prinsipinə əsaslanan "Elektron hökumət" sisteminin tətbiqinə keçidinin uğurlu nəticəsidir. Bütün bunlar, əlbəttə ki, vətəndaş məmnunluğunun, şəffaflığın təmin edilməsi ilə bağlı görülən işlərin real təzahürüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Azərbaycanda koronavirusla mübarizə müsbət tendensiya üzrə irəliləyir

### Buna görə də karantin rejimini mərhələ-mərhələ yumşaltmaq olar

Koronavirus pandemiyası dünyada tüğyan etməkdə, canlar almaqda və böhranlar yaratmaqda davam edir. Demək olar ki, əksər ölkələr bu bəladan qurtulmaq, yoluxmanın sürətini azaltmaq üçün sərhədlərini bağlayıb, izolyasiya tədbirləri həyata keçirirlər.

Azərbaycanda da infeksiyanın yayıldığı ilk zamanlardan etibarən ona qarşı effektiv mübarizəyə başlanıldı. COVID-19-un ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından zəruri qabaqlayıcı tədbirlər görülməyə başlandı. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.

Virusun yayılmasının qarşısının alınması istiqamətində ölkədə xüsusi karantin rejimi tətbiq olundu və hazırda bu rejim 2020-ci il 20 aprel saat 00:00-dan 2020-ci il 4 may saat 00:00-dək uzadılıb. Həmçinin aprelin 27-dən etibarən karantin rejimində bir sıra yumşalmalar da həyata keçiriləcək.

Bu isə onu deməyə əsas verir ki, Azərbaycanda koronavirusun qarşısının alınması istiqamətində görülən işlər müsbət tendensiya istiqamətində inkişaf edir.



#### Ölkəmizdə COVID-19-a yoluxanların 60 faizindən çoxu sağalıb

Amma hələlik tam qələbə üçün sevinmək tezdir. Çünki ölkəmizdə hələ də epidemioloji vəziyyət müşahidə olunur və sayıqlığı əldən vermək olmaz.

Səhiyyə nazirinin müavini Viktor Qasımovun məlumatına əsasən, Azərbaycanda diaqnostik testlərin sayı çoxalıb. Testlərin nəticəsi də göstərir ki, yoluxma halları müəyyən qədər azalıb və son iki həftə ərzində demək olar ki, artım olmayıb. Eyni zamanda koronavirusa yoluxanların 60 faizindən çoxu sağalıb: "Ona görə də karantin rejimini mərhələ-mərhələ yumşaltmaq, ləğv etmək olar. Bunun üçün davranış qaydaları olmalıdır. Əhali bilməlidir ki, özünü yoluxmadan necə qorusun. Dövlət üzərinə düşən bir çox vəzifələri yerinə yetirdi. Vətəndaşlar bundan sonra davranış qaydalarına riayət etsə, xəstəliklə mübarizəmizi başa çatdıra bilərik".

Səhiyyə nazirinin müavini nəzərə çatdırıb ki, karantin tədbirləri yumşaldılan zaman hansısa zonada yoluxma artarsa, bu halda yenə də karantin rejimi sərtləşdirilə bilər: "Bəzi regionlarımız artıq bu xəstəlikdən təmizlənib. Xəstəlik qeydə alınmış rayonların 25 faizində artıq fəal ocaqlar ləğv edilib. Bu da birgə səy nəticəsində baş verib".

#### Kütləvi toplaşmanın qarşısı alınır

"Aprelin 27-dən "ASAN xidmət" mərkəzləri vətəndaşlara 320-dən çox xidmət göstərəcək". Bu məlumatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev verib. O bildirib ki, sadəcə olaraq vətəndaşlar kütləvi toplaşmanın qarşısını almaq üçün əvvəlcədən növbə almalıdırlar: "Bunun üçün 3 imkan yaradılıb. Hər kəs ağıllı telefonlarda "ASAN xidmət" mobil tətbiqindən istifadə etməlidir. Vətəndaşlar seçdiyi mərkəz üzrə növbə götürə bilərlər. Onlar mərkəzə gəlib gözləmədən xidməti alacaqlar. Həmçinin asan.gov.az saytı vasitəsi ilə də onlayn növbə götürmək mümkündür. Vətəndaş sabahkı gün üçün özü vaxtı müəyyənləşdirə bilər. Cari gün üçün isə sistem avtomatik olaraq vaxtı təyin edir.

Üçüncü yol isə Çağrı mərkəzinə - "108"-ə zəng vurub növbə götürməkdir. Qabaqcadan növbə götürməyənlər mərkəzə buraxılmayacaqlar".



#### Məktəbəqədər təhsillə bağlı teledərslərə start verilib

"İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsi çərçivəsində UNICEF-in maliyyə və Təhsil Nazirliyinin dəstəyi ilə "Oynayırıq və öyrənirik" adlı teledərslərə start verilib.

Məktəbəqədər yaş dövrünə aid uşaqlar üçün hazırlanan teledərslər "ARB Günəş" telekanalının efirində həftənin II və IV günləri saat 12:05-də yayımlanır.

Teledərslərdə uşaqlara mövzulara dair nəzəri məlumatlar verilməklə yanaşı, həm də onların kiçik və böyük motorikasının inkişafı üçün praktiki məşğələlər də təqdim olunur.



#### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 24.04.2020-ci il saat 00:00-dan 25.04.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1251 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib ki, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 38766 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.




#### Dünyada koronavirus

Son sutka ərzində dünyada koronavirus infeksiyasına 106 minədək insan yoluxub və təxminən 6,2 min nəfər də bu virusun qurbanı olub.

24 aprel tarixli statistikaya görə, dünyada 2 828 617 nəfər yeni növ koronavirusa yoluxub, 197 091 nəfər isə bu ölümcül virusun qurbanına çevrilib. Son gün ərzində 105 616 insanda koronavirus aşkarlanıb, ölənlərin sayı isə 6174 nəfər artıb.

Ən çox yoluxma və ölüm halları Avropa regionunda qeydə alınıb - 1 225 314 yoluxma və 117 324 ölüm. Sutka ərzində burada yoluxanların sayı 32 038, ölənlərin sayı isə 3065 nəfər artıb.

Şimali Amerikada virusa yoluxanların ümumi sayı 996 143 nəfər təşkil edir, indiyədək 56 187 nəfər də ölüb. Cənubi Amerikada vəziyyət nisbətən ürəkaçandır - 120 166 yoluxma və 5538 ölüm faktı.

Yoluxma sayı üzrə üçüncü yeri Çin, Koreya Respublikası və Yaponiyanın daxil olduğu Asiya qitəsi tutur. Son məlumata görə, burada 448 216 yoluxma, 16 603 ölüm faktı qeydə alınıb.

İndiyədək dünyada 798 371 nəfər müalicə üsulu ilə virusdan xilas olub.

Ən çox yoluxanlar ABŞ-dadır - 925 038 nəfər. Onun ardınca İspaniya (219 764), İtaliya (192 994), Fransa (159 828), Almaniya (154 999) və Böyük Britaniya (143 464) gəlir.

#### Heydər Əliyev Mərkəzində yeni Çağrı mərkəzi yaradılıb

TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib ki, xaricdən ölkəyə qayıdan vətəndaşlarımızın karantinə alınması davam edəcək: "Bizim ilk və doğru addımımız məhz ölkəyə xaricdən qayıdan vətəndaşları karantinə almağımız oldu. Bununla biz vaxt qazanmış olduq. Bu vaxt ərzində xəstəxana və laboratoriyaların sayının artırılması, diaqnostik testlərin aparılmasının təkmilləşdirilməsi kimi işlər görüldü.

Xaricdən vətəndaşlarımızın Azərbaycana gəlməsi bu müddət ərzində həmişə olub və heç vaxt dayandırılmayıb. Onlar xüsusi reyslər vasitəsilə gəliblər və biz onları karantinə alıb müayinələr aparmışıq. Bundan sonra da hələ ki bu şəkildə davam edəcəyik. Bunun üçün onlar sadəcə qeydiyyata düşməlidirlər. Bu, müxtəlif ölkələrdə elektron qaydada həyata keçirilir. Daha sonra səfirliyin təşkil etdiyi yollarla onlar Azərbaycana qayıdacaqlar. Biz həmin vətəndaşları karantinə almağa davam edəcəyik. Karantin müddətində onların müayinəsi davam etdiriləcək. Əgər test nəticəsi pozitiv çıxan şəxs olarsa, o, izolyasiya ediləcək".

Y.Qarayeva yeni Çağrı mərkəzi yaradıldığını da bildirib: "Heydər Əliyev Mərkəzində yeni Çağrı mərkəzimiz yaradılıb. Orada 70-ə yaxın tibb işçisi pandemiya ilə əlaqədar sualları cavablandırmaq üçün fəaliyyətə başlayıb. Mərkəzdə vətəndaşlar üçün xüsusi psixoloji dəstək qrupu da var".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Koronavirusa qətiyyətimizlə qalib gələcəyik

### Xocalı ictimaiyyəti də pandemiyaya qarşı Azərbaycan dövlətinin tətbiq etdiyi karantin qaydalarına ciddi əməl edir

Ötən ilin son ayında Çinin Uhan əyalətində "peyda olan" "yarasa tipli" virus dünyanı lərzəyə gətirəcək sürətlə yayıldı. Xalqlar və dövlətlər onun qarşısını almaq üçün bütün mümkün vasitə və variantlardan istifadə etmək barədə ciddi düşünməyə vaxt tapmadan yoluxma və ölənlərin sayının nəinki günbəgün, hətta saatbasaat artması insanlarda vahimə yaratdı. Doğrusu, bu virusun pandemiyaya çevrilməsi, əslində, inkişaf etmiş Avropa ölkələrindəki səhiyyənin acizliyini də ortaya qoydu. Epidemiya dünya xalqlarını bir olmağa, bu "göydəngəlmə" bəlaya qarşı birgə mübarizənin vacibliyinə yönəltdi.

Təbii ki, Azərbaycan xalqı və dövləti də bu pandemiyadan kənarda qala bilməzdi. Çünki ölkəmiz şərqdən-qərbə, cənubdan-şimala nəqliyyat-kommunikasiya xətlərini özündə birləşdirən bir mərkəz kimi daim qonaq-qaralı olub. Ona görə də xaricdə koronavirusa yoluxmuş əcnəbilərin ölkəmizə səfərləri bizi də hələ ki, dərmanı axtarılan bəlaya saldı. Lakin sevindirici haldır ki, Azərbaycan Prezidentinin uzaqgörənliyi bu gün özünü bir daha göstərdi: xalqımız koronavirusa yoluxma və ölənlərin faizinə görə ən aşağı, sağalmalar baxımından isə yüksək yerlərdədir.

Əlbəttə, cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsi diqqəti və qayğısının nəticəsidir ki, bu gün dünyanı bəla kimi bürümüş koronavirusa qarşı ölkəmiz yüksək əhvali-ruhiyyə ilə mübarizəyə qoşulub. Əminik ki, dövlət başçısının qeyd etdiyi kimi, bu mübarizədən üzüağ çıxacağıq: minimum az zərərlə. Çünki Azərbaycan Prezidenti dövlətin iqtisadiyyatını və siyasətini düşünməklə bərabər, ölkə vətəndaşlarının hər biri haqqında da ciddi fikirləşir: onların hər biri daha dəyərli, sağlamlıqları isə hər şeydən üstündür.

Son vaxtlar, daha doğrusu, pandemiyanın sürətlə yayıldı günlərdə Azərbaycan dövlətinin pandemiyanın qarşısının alınması istiqamətində həyata keçirdiyi sosial izolyasiya və karantin qaydalarının tətbiqi də bunu təsdiqləyir. Bu gün Azərbaycan pandemiyadan az əziyyət çəkən, minimim itki verən ölkələr sırasında bəlkə də birincidir. Bu, hər bir vətəndaşımızın diqqətini cəlb edir. Ona görə də qabaqlayıcı tədbirlərə əməl etmək hər kəsin vətəndaşlıq borcuna çevrilib.

Azərbaycan Prezidentinin dünya liderləri arasında olan həm də şəxsi nüfuzudur ki, pandemiyaya qarşı mübarizədə tətbiq edilən qanunlar və qadağalar artıq Avropa dövlətlərində, həmçinin qardaş Türkiyədə də birmənalı şəkildə təqdir olunur. Videokonfranslardakı çıxışları ilə dünyanı səfərbər edən Azərbaycan Prezidenti bununla bir daha təsdiqləyir ki, bizim xalq xoşbəxtdir: onun belə praqmatik, uzaqgörən, düşüncəli, bütün sahələri bilən, vaxtında və operativ qərar qəbul edən lideri var.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun Azərbaycanın bu pandemiyaya qarşı apardığı mübarizənin nümunə olduğunu bildirməsi bizdə bir daha əminlik yaratdı ki, bu gün ağ xalatlı ön cəbhənin döyüşçüləri - həkimlərimiz dövlətimizin və xalqımızın qayğısına daim qalan Prezidentimizin ətrafında daha sıx birləşib. Bu həmrəylik pandemiyanın daha geniş əraziləri bürüməsinin qarşısının alınmasında mühüm amildir.

Ona görə də cənab Prezidentə elektron KİV vasitəsilə ölkə əhalisindən minlərlə, milyonlarla məktub gəlməkdədir. Biz də həmin axına qoşularaq bildirmək istəyirik ki, hörmətli Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyeva, birillik əməkhaqqınızı Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etməyinizi xocalılılar, o cümlədən Xocalı səhiyyəsi işçilərinin hər biri yüksək səviyyədə qarşılayır və Sizə öz təşəkkürümüzü bildiririk. Bundan sonra dövlət məmurları ilə yanaşı, iş adamları, sahibkarlar, o cümlədən sadə vətəndaşlar da bu addıma qoşuldu. Ölkə ərazisindəki aztəminatlı ailələrə gündəlik olunan yardımları biz də görürük. Bizim Xocalıdan olan aztəminatlı ailələrə edilən yardımlar isə həmişə maddilikdən daha çox mənəvi bir dayaq sayılıb.

Xocalı Rayon Mərkəzi Xəstəxanası Goranboyun Aşağı Ağcakənd qəsəbəsində, dağlıq və erməni silahlı birləşmələrinin yerləşdiyi ərazidə məskunlaşıb. Buna baxmayaraq koronavirusla bağlı mübarizədə mart ayından Tibbi Ərazilərin İdarə edilməsi Birliyi tərəfindən verilən tövsiyələrə uyğun, gündəlik, hər saatdan bir aldığımız tapşırıqları operativ yerinə yetirməyə çalışırıq. Əhalimizin tibbi müayinəsi, onların hər dəqiqə yerində yoxlanılması, lazım olanların koronavirusla bağlı laborator analizdən keçirilməsi davamlı şəkildə yerinə yetirilir.

Göstərilən diqqətin və qayğının nəticəsidir ki, Xocalı camaatı arasında, şükürlər olsun ki, COVID-19-a yoluxma halı baş verməyib. Biz səhiyyə işçiləri çalışırıq ki, hər gün əhalinin sağlamlığını qoruyaq. Koronavirusla mübarizəyə qoşulan Xocalı rayon səhiyyə işçiləri mart ayının 14-dən gücləndirilmiş növbəli iş rejimi ilə çalışaraq əhaliyə xidmət edirlər. Mərkəzi xəstəxananın sahə həkimi Mütalim Cəfərov, eləcə də sahə tibb bacıları və respublikanın müxtəlif yaşayış yerlərində olan kənd tibb məntəqələrinin işçiləri də onların qarşısında duran vəzifəni layiqincə yerinə yetirirlər.

Bildiyimiz kimi, Xocalı camaatı erməni vandalizminin qurbanlarına çevrilmiş, soyqırımına məruz qalmış vətəndaşlardır. Cənab Prezident! Onlar hər zaman Sizin diqqətinizdədir, o cümlədən Xocalının şəhid, aztəminatlı ailələrinə, qazilərinə daim qayğı ilə yanaşmısınız, ona görə də hər birimiz Sizə minnətdarıq! Daim cənab Prezidentimizin ətrafında sıx birləşərək, bütün problemləri həll edəcəyimizə əminik!

***Aqil MƏMMƏDOV,***
***Xocalı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi***

## Mərkəzi Bank pandemiya şəraitində əhalinin və biznesin dəstəklənməsi üçün əlavə tədbirlər barədə qərar qəbul edib

Azərbaycan Mərkəzi Bankı (AMB) koronavirus pandemiyası şəraitində əhalinin və biznesin dəstəklənməsi istiqamətində əlavə tədbirlər barədə qərar qəbul edib.

AMB-dən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planının "Karantin rejimi müddətində pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi" tədbirinin icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankı Maliyyə Sabitliyi Şurasının tövsiyələrini nəzərə almaqla müvafiq qərar qəbul edib. Bu qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamında nəzərdə tutulan müvafiq tədbirlərlə sinxronlaşdırılmaqla bərabər, eyni zamanda, daha geniş istiqamətləri, o cümlədən fiziki şəxslərin Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiyasını, dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiyasını, eləcə də sığorta və kapital bazarı iştirakçılarının dəstəklənməsini əhatə edən məsələləri də nəzərdə tutur.

Pandemiyadan təsirlənmiş sahibkarların dəstəklənməsi istiqamətində İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi iqtisadiyyatın pandemiyadan təsirlənmiş sahələrində fəaliyyət göstərən özəl biznes subyektlərinə, o cümlədən sahibkarlıqla məşğul olan fiziki şəxslərə kredit təşkilatları tərəfindən verilmiş, cari il martın 1-nə keyfiyyəti qənaətbəxş olan və kredit faizləri dövlət tərəfindən subsidiyalaşdırılacaq kreditlərin restrukturizasiyasına imkan yaradılacaq. Banklar tərəfindən sahibkarların müraciəti və qarşılıqlı razılaşma əsasında bu kreditlərin müddəti artırıla bilər. Bu halda borcalanın maliyyə vəziyyətindən və kreditin restrukturizasiya edilməsindən asılı olmayaraq kreditin keyfiyyəti bu il sentyabrın 30-dək pisləşdirilməyəcək.

Eyni zamanda bu il martın 1-nə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiya imkanlarının yaradılması nəzərdə tutulur. Bu tədbir nəticəsində Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına verilmiş 1 milyard manat həcmində biznes kreditləri üzrə 10 minədək iş adamının güzəştlərdən faydalanması üçün imkan yaranacaq.

Fiziki şəxslərin (sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan) dəstəklənməsi istiqamətində Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiya imkanları yaradılacaq. Bu tədbir nəticəsində 1,1 milyard manat həcmində ipoteka krediti üzrə 23 minədək sayda borcalanın faydalanması imkanı yaranacaq. Kreditlər borcalanların müraciəti əsasında restrukturizasiya olunacaq. Martın 1-dək verilmiş və keyfiyyəti qənaətbəxş olan belə kreditlərin restrukturizasiyası sentyabrın 30-dək həyata keçirildiyi halda onların keyfiyyəti pisləşdirilməyəcək. Eyni zamanda bankların öz vəsaitləri hesabına ipoteka kreditləşməsini stimullaşdırmaq məqsədilə bu kateqoriyadan olan kreditlər üzrə risk dərəcələrinin 100 faizdən 50 faizədək azaldılması barədə qərar qəbul edilib.

Biznes və istehlak təyinatlı kreditlərin (əsas və ya faiz borcu) tam və ya qismən gecikdirilməsi halında sentyabrın 30-dək borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması kredit təşkilatlarına tövsiyə ediləcək və bu zaman borcalanların kredit tarixçəsi pisləşdirilməyəcək. Bu müddət ərzində kredit təşkilatları tərəfindən əsas borc üzrə faizlərin hesablanması davam etdiriləcək və borcalanlar tərəfindən kredit təşkilatlarına ödənilməsi təmin edilməlidir.

Qeyd olunan tədbirlərin həyata keçirilməsinə şərait yaratmaq, biznes və əhaliyə maliyyə xidmətlərinin davamlılığını təmin etmək, kreditləşdirmə imkanlarının artırılması üçün banklara əvvəlki dövrlərdə toplanmış dayanıqlıq yastığından istifadə etməyə imkan yaradılması məqsədilə requlyativ yükün azaldılması istiqamətində tədbirlər nəzərdə tutulur.

Bu məqsədlə banklar üzrə məcmu kapital tələblərinin ilin sonunadək 1 faiz azadılması nəzərdə tutulur. Eyni zamanda bankların kapitalına təzyiq yaradan bir sıra digər tənzimləyici tələblər də ilin sonunadək təxirə salınacaq.

Bəzi iqtisadi sahələrin kredit resurslarına çıxış imkanlarının artırılması istiqamətində tibbi ləvazimat və avadanlıqlar istehsalçılarına verilən kreditlərin risk səviyyəsi 100 faizdən 20 faizə qədər azaldılacaq və beləliklə bu sahəyə banklar tərəfindən daha ucuz və daha az kapital sərf etməklə kredit ayırmağa imkan yaradılacaq.

İqtisadi aktivliyin azalması, biznes və ev təsərrüfatlarının gəlirlərinin aşağı düşməsinin ödəniş xidmətlərindən istifadə göstəricilərinə mənfi təsir etməsini nəzərə alaraq nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və xərclərin azaldılması məqsədilə sentyabrın 30-dək banklararası ödəniş sistemlərində banklardan tutulan xidmət haqlarının 50 faizədək endirilməsi və bank müştərilərinə göstərilən ödəniş xidmətləri üzrə tariflərin analoji qaydada azaldılması, eləcə də sahibkarların ödəniş kartlarının qəbulu üzrə tariflərinin 50 faizə qədər endirilməsi tədbirləri nəzərdə tutulur.

Pandemiya şəraitində iqtisadi aktivliyin azalması sığorta bazarında sığorta haqlarının həcminə də mənfi təsir etməkdədir. Digər tərəfdən sığorta olunanlarla sığortaçılar arasında fiziki təmasın minimuma enməsi sığorta xidmətlərinə çıxışın məhdudlaşmasına gətirib çıxarır. Bunu nəzərə alaraq, sığorta xidmətlərinin fasiləsizliyinin təmin edilməsi və sığorta olunanların hüquqlarının qorunması istiqamətində də tədbirlər nəzərdə tutulur.

Könüllü sığorta müqavilələri üzrə karantin rejimindən birbaşa təsirlənən sığortalılara sığorta haqlarının ödənilməsində sentyabrın 30-na kimi möhlət verilməsi, habelə sığorta xidmətlərinin elektron vasitələrdən effektiv istifadə etməklə göstərilməsi sığortaçılara tövsiyə edilib. Karantin rejimindən birbaşa təsirlənən sığortalılar üzrə sığorta haqlarının ödənilməsində veriləcək möhlətlər ilə bağlı olaraq sığorta şirkətlərinə münasibətdə ilin sonunadək müvafiq requlyativ yumşalmalar tətbiq ediləcək.

Mərkəzi Bank tərəfindən koronavirus pandemiyasının kapital bazarı iştirakçılarına yaranmış vəziyyətin mənfi təsirinin azaldılması istiqamətində də tədbirlərin həyata keçrilməsi nəzərdə tutulur.

Bu məqsədlə investisiya şirkətlərinin kapital tələblərinin pozulması müşahidə edildikdə təsir tədbirlərin görülməsi 2021-ci il yanvarın 1-dək, investisiya şirkətləri və fond birjası tərəfindən illik audit hesabatların açıqlanması isə bu il sentyabrın 30-dək uzadılacaq. Bununla yanaşı, qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən hesabatların açıqlanması da 1 ay müddətinə uzadılıb.

Eyni zamanda Milli Depozit Mərkəzinə səhm və istiqrazlarla təkrar bazarda bağlanan əqdlər habelə repo əməliyyatlarının qeydiyyatı üzrə tariflərin cari il sentyabrın 30-dək investorlardan tutulmaması, Bakı Fond Birjasına isə emitentlərdən korporativ istiqrazlar üzrə listinq tariflərini 2021-ci il yanvarın 1-dək tutulmaması və qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin sayının minimallaşdırılması tövsiyə ediləcək. Qeyd olunan tədbirlər kapital bazarı iştirakçılarının requlyativ yükünü yüngülləşdirməklə investorun tranzaksiya xərclərinin optimallaşdırılması və dövlət qiymətli kağızlar bazarında təkrar bazar əməliyyatlarının daha çevik aparılması təmin edilmişdir. Bütövlükdə nəzərdə tutulan tədbirlər pandemiya şəraitində biznesə və əhaliyə göstərilən maliyyə xidmətlərinin fasiləsizliyinin təmin olunmasına, iqtisadiyyatın kreditləşməsinin davam etdirilməsinə, maliyyə xidmətlərinin istehlakçılarının hüquqlarının qorunmasına şərait yaradacaq.

Bütün qeyd olunan tədbirlərin (tədbirlər barədə daha ətraflı məlumatla link vasitəsilə tanış olmaq olar - https://uploads.cbar.az-/press-releases/4abaa71e03055090a-17e75d89.pdf) səmərəli icrasını təmin etmək üçün əlaqədar dövlət orqanları və maliyyə sektorunun iştirakçıları, maliyyə xidmətlərinin istehlakçıları ilə birlikdə sıx koordinasiya işi qurulacaq və əldə olunan nəticələr barədə cəmiyyət davamlı olaraq məlumatlandırılacaq.

# REGİONLAR



## Xüsusi karantin rejimi Tovuzda yaz-tarla işlərinə mane olmur

Keçən il tovuzlular üçün uğurlu oldu. Onlar 220 milyon 49 min manat dəyərində 385 min 113 ton kənd təsərrüfatı məhsulları, o cümlədən 50 min 52 ton dənli bitkilər istehsal etdilər. Ondan əvvəlki ildən fərqli olaraq dənli bitkilərin məhsuldarlığı 0,3 faiz artaraq 32,4 sentner, o cümlədən buğdanın məhsuldarlığı 33 sentner oldu.



Rayon sakinləri kartof istehsalını da xeyli artıraraq 158 min 706 tona çatdırdılar. Məhsuldarlıq 33,5 sentner artaraq 250,5 sentnerə yüksəldi. Təsərrüfat sahibləri ümumilikdə istehsal olunan kənd təsərrüfatı məhsulları satışından 4 milyon 100 min manat gəlir əldə etdilər. Qazanılan bu uğurlardan ruhlanan rayon sakinləri indi böyük ruh yüksəkliyi ilə sahələrə çıxaraq daha yüksək göstəricilər uğrunda mübarizə aparırlar.





Lakin yaz-tarla işləri dövründə dünyada hökm sürən pandemiya onların işini bir qədər çətinləşdirmişdir. Buna baxmayaraq, rayonda işin ahəngi bir an belə pozulmur. Rayon sakinləri pandemiyanın qarşısının alınması və onun ölkə iqtisadiyyatına mənfi təsirinin minumuma endirilməsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərin səmərəli olacağına inanır və qarşılarına qoyduqları məqsədə çatmaq üçün bütün imkanlardan istifadə edirlər.

Belə bir çətin dövrdə kənddə yaşayıb dolanışığı torpaqla bağlı olan məhsul istehsalçıları yenə də dövlətin qayğısını hiss edirlər. Xüsusilə aqrar sahədə çalışan fermerlərə verilən kredit faizinin azaldılması və məbləğinin artırılması indi kənd təsərrüfatı ilə məşğul olan insanlarda böyük maraq oyatmışdır. Onlar COVID-19 hökm sürdüyü bir zamanda Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara, xüsusilə karantin rejiminə ciddi əməl etməklə hər gün əkin sahələrinə çıxır, yaz-tarla işləri ilə məşğul olurlar.

İqtisadiyyatının əsasını aqrar sahə təşkil edən Tovuz rayonunda hazırda mövsümi kənd təsərrüfatı işlərinin görülməsi, yaz-tarla işlərinin aqrotexniki normalara uyğun həyata keçirilməsi davam etdirilir. Tovuzlu fermerlərlə söhbət zamanı aydın oldu ki, onlar ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin qaydalarına riayət etməklə kənd daxilində sərbəst şəkildə təsərrüfat işləri ilə məşğul olurlar. Koronavirusla mübarizə məqsədilə rayon ərazisində görülən məqsədyönlü və ardıcıl tədbirlər fermerlərdə əminlik yaradır ki, karantin rejiminin tələbləri onların ancaq sağlamlığına xidmət edir və məhsul istehsalçılarına normal işləyib fəaliyyət göstərmələri üçün maneçilik törətmir.

Qeyd edək ki, yaz-tarla işlərinin gedişi rayon icra hakimiyyətinin nəzarəti altındadır. Əkin-səpin işlərinin vaxtında başa çatdırılması, yaranan hər hansı problemin təcili aradan qaldırılması üçün icra hakimiyyətində qaynar xətt yaradılmışdır. Qaynar xəttə daxil olan zənglər qeydiyyata alınmaqla təcili tədbirlər görülür. Bundan başqa, rayon rəhbərliyi tez-tez sahələrdə olur, işin gedişi ilə maraqlanır. Elə bu günlərdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov ayrı-ayrı kəndlərdə taxıl, kartof, bostan sahələrində, eləcə də üzüm bağlarında olmuş, torpaq mülkiyyətçiləri ilə görüşmüş, cari işlərin gedişi ilə maraqlanmış, kənd təsərrüfatı məhsulları istehsalçılarının qarşılaşdıqları çətinliklərin aradan qaldırılması və işin sürətləndirilməsi üçün aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar vermişdir. Təsərrüfat işləri ilə tanışlıq zamanı rayon icra hakimiyyətinin başçısı suvarmanın mütərəqqi üsullarla təşkili, su itkisinin qarşısının alınması ilə bağlı tövsiyələr vermiş, fermerlərlə geniş fikir mübadiləsi aparmışdır. Fermerlər onlara göstərilən dövlət qayğısından razılıqlarını bildirmiş, bu mövsümdə sahələrdən bol məhsul götürəcəklərinə əminlik ifadə etmişlər.

Göstərilən diqqət və qayğının nəticəsidir ki, hazırda Tovuzda kənd təsərrüfatı işləri uğurla davam edir. Hər gün səhər tezdən əkin sahələrinə çıxan məhsul istehsalçıları qarşılarına qoyduqları məqsədə çatmaq üçün var qüvvələrini əsirgəmirlər. İndi rayonun hansı ərazisinə yolu düşən olsa, insanları əkin sahələrində görər. Məhz bunun nəticəsidir ki, indiyədək torpaq sahibləri 710 hektarda tərəvəz əkmişlər. Bu, keçən ildəkindən 3,2 hektar çoxdur.

Məlum olduğu kimi, Tovuz Gədəbəydən sonra ən çox kartof istehsal edən rayonlardandır. Rayon sakinləri hər il kartof istehsalında yüksək göstəricilərə nail olurlar. Odur ki, keçən il 3542,2 hektarda kartof əkən torpaq sahibləri yüksək gəlir əldə etmişlər. Bu uğurdan ruhlanan rayon sakinləri əkin sahələrini bir qədər də genişləndirərək 3950 hektara çatdırmışlar. Artıq rayonda kartof əkini başa çatdırılmışdır. Hazırda əkilmiş sahələrə aqrotexniki qulluq göstərilir.

Yazlıq qarğıdalı səpini də yekunlaşdırılmışdır. Fermerlər 50 hektarda dən üçün qarğıdalı səpərək mal-qaranın yemlə təminatına şərait yaratmışlar. Ümumiyyətlə, koronavirus epidemiyası Tovuzda yaz-tarla işlərinin gedişinə qətiyyən mane olmur. Rayon sakinləri müvafiq qaydalara əməl etməklə bol məhsulun bünövrəsini qoyurlar. İnanırlar ki, çəkdikləri əziyyətin bəhrəsini görəcəklər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Tərtərdə həyat öz axarındadır



Koronavirusla mübarizə tədbirləri müvəffəqiyyətlə həyata keçirilməkdədir. Ölkəmizin bütün bölgələrində olduğu kimi, Tərtər rayonunda da bu təhlükəli pandemiya ilə mübarizə günümüzün prioritet vəzifəsi olaraq qalmaqdadır.

Nazirlər Kabinetində fəaliyyət göstərən Operativ Qərargahın tapşırıq və tövsiyələrini, xüsusi karantin qaydalarının icrasını yüksək məsuliyyət hissi ilə təmin etməyə çalışan rayon rəhbərliyi zəruri tədbirlər görür.

Rayonda karantin tələblərinə ciddi əməl edilməklə yanaşı imkansız, aztəminatlı ailələrə, tənha yaşayan ahıl və qocalara xüsusi qayğı və diqqət göstərilir, davamlı ərzaq yardımları edilir. Bu sahədə səmərəli fəaliyyət göstərən mobil qrupların əməyi təqdirəlayiqdir. Geniş əhatəyə malik bu qayğı və diqqət rayonda sağlam mənəvi psixoloji mühitə əhəmiyyətli təsir göstərir, dövlət-xalq birliyinin, dövlətin xalq üçün çalışdığının təntənəsinə çevrilir.

Tərtər Rayon Ağsaqqallar Şurasının sədri Qədir Allahverdiyevin dedikləri:

- Gözəgörünməz və çox təhlükəli düşmən olan koronavirusla mübarizədə dövlətin hər an üzərimizdə hiss etdiyimiz isti nəfəsi, kürəyimizdə duyduğumuz güclü əli bizə yaşamaq həvəsi verir. Dövlətin hər evə ünvanlanan, hər ailəyə çatan qayğısı Tərtər camaatında hədsiz razılıq və minnətdarlıq hissi doğurur. Son günlər Prezident İlham Əliyevin ünvanına Tərtərdən təşəkkür dolu yüzlərlə teleqram göndərilmişdir. Çətin gündə, bərk ayaqda öz vətəndaşına sahib çıxan dövlət başçısının doğma və isti münasibəti ən böyük alqışa layiqdir.

Tərtərdə dezinfeksiya işlərinin, aztəminatlı ailələrə yardımların davamlı şəkildə həyata keçirilməsi ilə yanaşı təsərrüfat işlərinin optimal müddətlərdə yerinə yetirilməsinə də böyük önəm verilir. Son illər Tərtər ölkənin pambıqçılıqla məşğul olan rayonları arasında qabaqcıl təcrübə mənbəyi kimi şöhrət qazanmışdır. Keçən il rayonun "ağ qızıl" ustaları 3427 hektar sahədə pambıq əkib-becərmiş, nəticədə 11,936 ton məhsul istehsal etmişlər. Hər hektar sahənin orta məhsuldarlığı 34,8 sentner olmuşdur ki, bu da respublika üzrə ən yüksək göstəricidir.



Artıq bir neçə gündür ki, rayonun təsərrüfatlarında çiyid səpininə başlanılmışdır. İlin məhsul bolluğuna etibarlı bünövrə qoymaq, qabaqcıllıq mövqeyini cari ildə də qoruyub saxlamaq, nailiyyətləri daha da artırmaq üçün bütün qüvvələr səfərbər edilmişdir.

İndiyədək 2 min hektardan çox sahəyə çiyid səpilmişdir. Səpin bütün təsərrüfatlarda ciddi mütəxəssis nəzarəti altında aparılır. Aqrotexniki tələblər əsas götürülür, sahələr səpinə hazırlanır, çiyidin normal dərinliyə düşməsinə xüsusi fikir verilir.

Tərtərdə yaz-tarla işləri mütəşəkkilliklə davam edir. Bu cəbhə bölgəsində həyat öz axarındadır.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Qusarda yazlıq bitkilərin əkini davam edir

Dünyanı bürüyən pandemiyaya qarşı mübarizədə səfərbər olunan Azərbaycanda bir çox təsərrüfat sahələri öz işlərini günün tələbləri səviyyəsində qura biliblər. Onlardan biri də kənd təsərrüfatıdır. Kəndin qayğıları bir qədər artsa da, əl işdən soyumur.



Qusarlılar pandemiyaya qarşı birlikdə mübarizə aparırlar və karantin rejiminin tələblərinə uyğun yaşam tərzi qurublar. O cümlədən aqrotexniki qaydada yazlıq işlərini də davam etdirirlər. Rayonun təsərrüfatlarında aprelin 1-dək 635 hektar sahədə yazlıq bitkilər əkilib. Bunun 20 hektarını vələmir, 90 hektarını çoxillik bitkilər və 69 hektarını tərəvəz bitkiləri təşkil edir.

Bu günədək əkilən tərəvəz bitkiləri siyahısında çoxluq kartof bitkisinin payına düşür. 456 hektarda əkilən kartof sortlarına görə fərqlənir. Keyfiyyətinə görə Gədəbəy kartofundan heç də geri qalmayan Qusar sortu təkcə respublikamızda deyil, xarici bazarlarda da yaxşı satılır. Becərilmə mexanizmi və məhsuldar torpaqda əkilməsi Qusar kartofuna tələbatın ilbəil artmasına səbəb olub.

Qusarda bu il ümumilikdə ötən ilin eyni dövrü ilə müqayisədə 112 hektar çox yazlıq bitkilər əkilib. Bunun 2 hektarı tərəvəz bitkilərinə aiddir. 115 hektarı isə kartof bitkisidir. Münbit torpaqda yetişdirilən məhsulun bu il də bol olacağı proqnozlaşdırılır. Qeyd edək ki, Qusarda əkin mütəxəssislərin tövsiyəsi ilə yalnız yararlı sahələrdə aparılır. Bu da məhsuldarlığın artmasına səbəb olur.

Sarımsaq yetişdirməkdə ötən ilin yekunlarından razı qalan qusarlılar bu il həmin məhsulun da əkin sahəsinin artırılmasına qərar veriblər. Belə ki, sarımsaq sahələri 47,6 faiz (42 hektara qarşı 62 hektar) genişləndirilib. Bu məhsulun profilaktik, müalicəvi xüsusiyyətləri qiymətlərin istehlakçılar üçün daha sərfəli olacağı ehtimalını artırır.

Sarımsaq eyni zamanda konserv məhsullarının hazırlanmasında geniş istifadə edildiyindən onun satışı o qədər də çətinlik törətmir. Odur ki, Qusarda becərilən sarımsağın məkandan asılı olmayaraq həmişə alıcısı var.

Havaların yağışlı keçməsi əkilmiş bitkilərin təbii becərilməsini təmin edən cəhətdir. Yağış suyu ilə suvarılan sahələr daha bərəkətli olur. Bu, həm də təsərrüfat sahibinin məsrəfini azaldır.

Hazırda yazlıq bitkilərin əkini davam etdirilir. Hələ yaz sona çatmayıb. Pandemiya dövrü olmasına baxmayaraq, qusarlılar əmindirlər ki, vaxtında aparılan qabaqlayıcı tədbirlər nəticəsində onun fəsadları aradan qaldırılacaq. Tezliklə sahələrdə becərmə dövrü başlayacaq. Sonra kəndli yetişdirdiyi keyfiyyətli məhsulları bazarlara çıxaracaq. Beləcə, həyat öz axarına düşəcək.

***Akif ƏLİYEV, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

### Mütəxəssis rəyi

## Bağlara qayğı və düzgün texniki xidmət məhsuldarlığın təməlidir

Fermerlər son illər yeni çəyirdəkli meyvə bağlarının salınmasına üstünlük verir və bu zaman onlar daha məhsuldar meyvə sortlarından istifadə edirlər. Bu yerdə qeyd edək ki, son onillikdə Azərbaycana 40-a qədər yeni gilas, 15-ə qədər gavalı, şaftalı, 10-a qədər ərik (qaysı) sortları gətirilmiş və 5x3m, 5x4m, 4x3m, 4x2m, 4x1,5m sxemləri əsasında intensiv tipli çəyirdəkli meyvə bağları salınmışdır. Hazırda şimal bölgəsində belə meyvə bağlarının sahəsi 2000 hektara çatmaq üzrədir.



Şimal bölgəsinin, eləcə də bağlar diyarı Qubanın istər köhnə ekstensiv, istərsə də yeni intensiv tipli çəyirdəkli meyvə bağlarında yayılmış xəstəlik və zərərvericilər bu bitkilərin ayrı-ayrı orqanlarına sirayətlənərək onların zəifləməsinə, məhsuldarlığının aşağı düşməsinə və bəzən də qurumasına səbəb olur. Bunun qarşısını almaq, mövcud barverən çəyirdəkli meyvə bağlarından bol məhsul əldə etmək üçün bağbanlar xəstəlik və zərərvericilərə qarşı əlaqəli (inteqrir) mübarizə tədbirləri sistemini həyata keçirməlidirlər.

Bağbanlar yaz aylarında qurumuş ağacları kökündən çıxarmalı, xəstə, yarıqurumuş budaqları 1-2 sm sağlam toxumayadək kəsməli və onları bağdan çıxararaq yandırmalıdırlar. Ağacların quru qabıqdan təmizlənməsi işi də yerinə yetirilməlidir. Bu zaman budaqlarda əmələ gəlmiş yaralar 1-3 faizli mis kuporosu məhlulu ilə dezinfeksiya edilərək üzərinə bağ məlhəmi sürtülməlidir.

Ağacların tumurcuqları şişənəcən olan dövrdə yastıcalar, mənənələr, meyvəyeyənlər, gənələr və digər zərərvericiləri qışlama mərhələlərində məhv etmək üçün bağlara mineral yağ emulsiyalarından (komprador, trinol və s.) birinin 3-3,5 faizli məhlulu çilənməlidir.

Çəyirdəkli meyvə bağlarında adlarını qeyd etdiyimiz xəstəliklər kompleksinə qarşı 1 faizli (10 kq/11 ton su) Bordo mix, 1,5 faizli Monika Bordo (15l/1 ton su), yaxud 0,4 faizli (4kq/1 ton su) mis hidroksid tərkibli fungisidlərdən (Koproxide Funquran Plakopp və s.) birini tumurcuqların şişməyə başladığı fazada çiləmək lazımdır.

Xəstəlik və zərərvericiləri kompleks məhv etmək üçün bitkilərə çiçəklənmə ərəfəsində 0,03 faizli (300qr/1ton su) siprodinil (xoruş, kompas və s.) tərkibli və 0,05 faizli (0,5l/1 ton su) lambda-siqalotrin tərkibli (karate-zeon, foenix və s.) preparatların qarışığı çilənməlidir. Çiçəkləmə qurtaran kimi çəyirdəkli meyvə bağlarına 0,03 faizli (300qr/1ton su) difenokonazol (skor, conazol və s.) tərkibli və 0,05 faizli (0,5l/1ton su) asetamiprid (qoldplan, mostar və s.), həmçinin 0,05 faizli sipermetrin tərkibli (arrivo və s.) preparatların qarışığı çilənməlidir.

Quba-Xaçmaz bölgəsində Şərq və gavalı meyvəyeyənlərinin, albalı milçəyi, mənənələrin, həmçinin xəstəliklərin kütləvi inkişafının may ayının ortalarında müşahidə edildiyini nəzərə alaraq, həmin dövrdə ağaclara 0,15 faizli metation tərkibli (ultrasidin və s.), yaxud 0,15 faizli dimetoat tərkibli (yeni Bİ-58, kinqor və s.) preparatlardan biri ilə 0,25 faizli mankozeb tərkibli preparatın qarışığı çilənməlidir.

Vegetasiya dövründə dimetoat tərkibli (yeni Bİ-58, kinqor və s.) preparatlardan ərik (qaysı) və şaftalı (nektarin) bitkilərində istifadə edilməsi məqsədəuyğun deyil. Bu bitkilərdə dimetoat tərkibli preparatlar digər preparatlarla əvəz edilməlidir.

Sonuncu müalicə işlərində xəstəliklərə qarşı gilas, albalı, gavalı bağlarında mis tərkibli (koproxide, plakopp, abiqa-pik və s.), ərik və şaftalı bağlarında isə mankozeb, tiram (ziram) tərkibli preparatlardan istifadə olunmalıdır.

Payız-qız dövründə fevral ayından başlayaraq çəyirdəkli meyvə bağlarında formavermə və budama işlərinə başlanmalı və bu yazın başlanğıcında başa çatdırılmalıdır. Havanın quraq keçməsini və yağıntıların az olmasını nəzərə alaraq qış suvarmasının aparılması da olduqca vacib məsələdir.

Bağlarda siçanabənzər gəmiricilər müşahidə olunarsa, yuvalara dərhal aldadıcı yem qoyulmalıdır. Aldadıcı yem hazırlayarkən 10 kq pörtülmüş buğda dəninin üzərinə 0,5 litr bitki yağı tökülür, qarışdırılır və sonra üzərinə 100-150 qr sink-fosfid səpilib qarışdırılır. Hazırlanmış zəhərdən hər yuvaya çay qaşığı ilə 5-8 dən tökülür və yuvanın ağzı ayaqla tapdalanır. Bu dövrdə cərgə aralarının diskilənməsi və ətraflarının frezlənməsi işi də aparılmalıdır. Unutmayaq ki, meyvəyə becərmənin əvvəlində çəkilən zəhmət yığımda öz sözünü deyir.

***Mədət QURBANOV, Quba Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin direktor müavini***





# İÇƏRİŞƏHƏR





● Bakı əsilzadələri

**Tariximizi özündə əks etdirən, qala divarları ilə əhatələnmiş İçərişəhər... Dar dalanları, dördkünc evləri keçmişdən soraq verir. Zaman dəyişdikcə, nəsillər bir-birini əvəz edir. Ancaq aradan nə qədər vaxt keçsə də, bu şəhərin xeyirxah, xalqını, yurdunu sevən sakinləri unudulmurlar. İçərişəhərdə çoxu yalnız öz ad-sanı, əməlləri ilə deyil, bütövlükdə soykökü, şəcərəsi ilə xatırlanır. Səlimxanovlar da qədim İçərişəhərin belə əsilnəcabətli nəsillərindəndir.**

# Vətənpərvər Səlimxanovlar...

### Tarixdən gələn soraq...

Bu tanınmış, zadəgan nəslinin nümayəndələrinə cəmiyyətdə xüsusi hörmət, ehtiram göstərilib. Səlimxanovlar digər əsilzadə ailələri arasında da böyük nüfuz qazanıblar. Onların Aşurbəyovlar, Bakıxanovlar, Hacınskilər, Dadaşovlar, Mehmandarovlar, Tağıyevlər, Xanlarovlar və Azərbaycanın digər zadəgan nəsilləri ilə həm də qohumluq əlaqələri olub.

Səlimxanovlar nəslinin tarixi barədə bəzi mənbələrdə, notariat sənədlərində məlumatlara rast gəlinir. Tədqiqatçılar Hacı Heybət bəy, Kazım bəy, Zeynal bəy, Rza bəy və İsa bəy Səlimxanovların evlərinin İçərişəhərin cənub-qərbində yerləşdiyini bildiriblər. Bu tikililər onlara məxsus Qasım bəy hamamının yaxınlığında olub. Varvara (hazırda H.Rzayeva) küçəsindəki evlərin çoxu, həmçinin Qasım bəy karvansarası da Səlimxanovlara məxsusdur.



Ağa bəy Səlimxanov

Tarix elmləri doktoru, professor Sara Aşurbəyli "Bakı şəhərinin tarixi" kitabında yazıb: "Bakının I Pyotrun qoşunları tərəfindən işğalından sonra, 1723-cü ildə şəhərin çar qoşunları tərəfindən tutulmasından narazı olan yerli feodallar sultan başda olmaqla sui-qəsd təşkil etmişdilər". Tədqiqatçı alim sui-qəsd baş tutmadığını və buna səy göstərənlərin əksəriyyətinin cəzalandırıldığını da diqqətə çatdırıb: "Təsvir edilən hadisələrlə bağlı olaraq sultanlıq ləğv edildi və Abşeron kəndlərini idarə edən naib Səlim xanın tabe olduğu Bakı qalası komendantı vəzifəsinə həmin vaxtlar şəhərin qubernatoru vəzifəsində olan knyaz Baryatinski təyin edildi". Kitabda Sara Aşurbəylinin belə bir qeydi də var: "Naib Səlim xan - bizim zamanda tanınmış bakılı Səlimxanovların ulu babasıdır".

Mənbələrdə qalan məlumata görə, Səlim xan təxminən 1660-cı ildə dünyaya gəlib. Adı Bakı xanlarının xronoloji siyahısına salınıb. Məlumata görə, Abşeronu idarə edən naib Səlim xan Bakı şəhərinin komendantına tabe idi. O, gənclik illərindən Dərgahqulu bəylə dost olub.

1727-ci ildə ləğv edilən sultanlıq sonra yenidən bərpa edilib. Həmin vəzifəyə Dərgahqulu bəy təyin olunub. 1731-ci ildə Səlim xan Bakı şəhərinin hakimi olub.

Səlim xanın oğlu Hacı bəyin 1690-cı ildə dünyaya gəldiyi ehtimal olunur. O, 1733-cü ildə Səlim xanın Abşeronda sultan Dərgahqulu bəy üçün təşkil etdiyi ceyran ovunda olub. Səyyah Lerx həmin ovu belə təsvir edib: "Sönməyən odların çıxdığı yerdən biz çoxlu qamışlıqların olduğu Kali adlanan yerdən keçib getdik, sonra yolumuz böyük Sansen kəndindən keçərək yarımadanın dar sonluğunda vəhşi keçi ovu üçün hazırlanmış yerə çatdıq. Bu ov üçün bir neçə kənddən tüfəngli, kamanlı-oxlu, çomaqlı və itləri ilə bir neçə yüz kişi cəm edilmişdi. Onlar həmin yerdə dənizin bir sahilindən üzbəüzdəki sahilə qədər xətt təşkil etməli idilər, belə də etdik və xətti qırmadan qarşımızdakı vəhşi keçiləri yarımadanın dar ucuna qısnamaqdan ötrü irəlilədik. Buradakı qamışlıqlarda və şoranlıqlarda onlar çoxlu sayda idilər. Burada Darqa-sultan bir neçə yüz adamla bizə birləşdi..."



Səlimxanovlara məxsus olan Qasım bəy karvansarası (İndiki Muğam klubu)



Səlimxanovlara məxsus olan Qasım bəy hamamı. XV əsr. (Müasir görünüşü)

Nadir şahın 1747-ci ildə qətlə yetirilməsindən sonra onun qohumları və feodallar arasında hakimiyyət uğrunda ara çəkişmələri, xalq arasında həyəcanlar doğuran yalançı taxt-tac iddiaçıları meydana çıxdı. Sara Aşurbəyli yazırdı: "Azərbaycanda həmin vaxtlar bir sıra müstəqil xanlıqlar əmələ gəldi və onların arasında ən mühümlərindən biri Bakı mərkəz olmaqla yaranan Bakı xanlığı idi. Dərgahqulu xanın oğlu Mirzə Məhəmməd xan (1747-1768-ci illər) qoşunlara və Nadir şaha yaxın olan zabitlərdən biri kimi tutduğu bu mövqeyə söykənərək, hakimiyyəti öz əlinə keçirdi və şahın təyin etdiyi Bakı hakimini şəhərdən qovdu. Bakının sultanı vəzifəsinə Səlim xan təyin edildi; Abşeron kəndlərini bəy zümrəsindən olan bir neçə yüzbaşı ilə naib idarə edirdi".

### Rəhbər vəzifələrdə çalışmış Səlimxanovlar...

Tarixi sənədlərdə Səlim bəyin və Abdulla bəyin Hacı bəyin oğulları olduqları qeyd edilir. Abdulla bəyin 1708-ci ildə dünyaya gəldiyi güman edilir. 1731-ci ildə Dərgahqulu bəy onun Bakı mahalına məlik təyin olunması üçün fərman imzalayıb. Abdulla bəyin sonrakı taleyi haqqında məlumat yoxdur.

Məhəmməd Səlim bəy də Hacı bəyin oğlu idi. Onun 1720-ci ildə anadan olduğu təxmin edilir. Məhəmməd Səlim bəyin oğlu Mansurxan bəyin (1740-1790) beş oğlu olub. Məhəmməd Səlim bəyin digər oğlu Manaf bəy (1760-1830) XVIII əsrin axırları - XIX əsrin əvvəllərində ölkənin siyasi-iqtisadi həyatında fəal iştirak edib. Hüseyn Qulu bəy Bakinskinin qohumu olan Manaf bəy 1792-ci və 1795-ci illərdə onun və bütün Bakı sakinlərinin adından Rusiya tabeliyinə daxil olmaları barədə etibarnamni vermək üçün general Qudoviçin yanına göndərilib.

Araşdırmalardan o da məlumdur ki, Bakı şəhərinə iddialı olan Şeyx Əli xanın adamları Dərbənddə Manaf bəyi saxlayıblar. Təhdidlərdən sonra Manaf bəyi yenidən Bakıya, Bakı xanına hədələyici məktubla geri göndəriblər. 1795-ci ilin martında Georgiyevskdə Hüseyn Qulu xan Bakinskinin məktubu Manaf bəy tərəfindən general Qudoviçə çatdırılıb.

Məhəmməd Səlim bəyin oğlanlarından biri - Hacı Qasım bəyin XVIII əsrin sonu, XIX əsrin əvvəlində ölkənin siyasi-iqtisadi hadisələrində iştirak etdiyi də məlumdur. 1792-ci ildə Məhəmməd Qulu xan Bakinskinin ölümündən sonra onun qardaşı oğlu Hüseyn Qulu ağa öz kürəkəni Hacı Qasım bəyin və başqa bəylərin köməyi ilə Bakı xanı seçilib.

Mansurxan bəy Səlimxanovun oğlu Fatmayı kəndində yaşayıb. Zeynal bəy və Hacı Qasım bəy Səlimxanovlar isə 1832-ci ildə Turkənd (indiki Türkan) kəndini idarə ediblər. Qasım bəyin oğlu Rza bəy Varşavada, Qafqaz süvari-müsəlman alayında xidmət edib.

Araşdırmalarda qeyd olunub ki, zabit Hacı Həsən bəyin oğlu Cəfər Qulu bəy 1829-cu ildə anadan olub. Adı 1849-cu ildə tərtib edilmiş bəylər siyahısına salınıb. Cəfər Qulu bəy Səlimxanov Bakı quberniyası, Qafqaz şiə-din idarəsində kargüzar işləyib.

Hacı Heybət Qulu bəyin oğlu Nəcəf bəy (Ağa bəy) əmisi oğlu Məmməd Hüseyn bəy Səlimxanovla birlikdə Bakı şəhərinin böyük neft sənayesi sahibləri kimi tanınıblar.

Səlimxanovların başqa bir nümayəndəsi - Ağa bəy 1845-ci ildə praporşik Hacı Həsən bəyin ailəsində dünyaya göz açıb. Şəhər məktəbində oxuyub. Xeyriyyəçi kimi nüfuz sahibi olub.

Gizir Hacı Rza bəy Səlimxanovun oğlu İsa bəy böyük neft sərvətinə malik və mülk sahibi olub. Qasım bəy karvansarası da ona məxsusdur. Kərbəlada dəfn olunduğu barədə məlumat var.

Sovet hökumətinin bəy, xan, ağa nəslindən olanlara, varlılara qarşı mübarizəsi Səlimxanovlardan da yan keçməyib. Hacı Zeynalabdin Tağıyevin yaratdığı Bakı Ticarət bankında işləyən Zeynal bəy Nəcəf bəy oğlu Səlimxanovun (1886-1942) həbsinə NKVD 1941-ci ilin iyununda qərar verib. Onu antisovet təbliğatı aparmaqda günahlandırıblar. Səkkiz il həbs cəzasına məhkum edilib. Zeynal bəy Hacı Zeynalabdinin qızı Sara xanımın (1899-1991) həyat yoldaşı idi.

### Nəslin davamçıları...

Bu əsilzadə nəslin mərd, ziyalı, vətənpərvər övladlarının ayrı-ayrı dövrlərdə hakimiyyətin rəhbər vəzifələrində çalışdıqları tarixi sənədlərdə təsdiqini tapıb. Mənbələrdə bir zamanlar Səlimxanovların dəniz limanı vasitəsilə Bakı ticarətinin böyük hissəsinə nəzarət etdikləri barədə də məlumatlar var. Ölkəmizin, onun paytaxt şəhərinin inkişafında Səlimxanovların da əməyi olub. Bu gün də bu nəslin nümayəndələri müxtəlif sahələrdə çalışır, bilikləri, bacarıqları ilə ad-san qazanırlar. Onlardan biri - Nailə Vəlixanlı Səlim bəy Səlimxanovun qızı Asiyə xanımın (1906-1982) övladıdır. Nailə xanım Azərbaycanın Orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun sosial-iqtisadi münasibətləri, siyasi-mədəni tarixi və tarixi coğrafiyası məsələlərini araşdırıb. O, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilib. 1998-ci ildən Milli Azərbaycan Tarixi Muzeyinin direktorudur.

Bu nəslin başqa bir nümayəndəsi - Tələt Mehdiyev isə fizika elmləri doktoru, professordur.

Zaman öz gərdişindədir. Azərbaycan xalqının mənəvi dəyərlərini yaşadanlar isə hər dövrdə olub və beləlləri çoxdur. Onların arasında Səlimxanovlar nəslinin nümayəndələri də var.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Danışan tariximiz



# Şirvanşahlar sarayının bərpa tarixindən

**2000-ci ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Şirvanşahlar Saray Kompleksinin abidələri keşməkeşli tale yolu keçmişdir. Arxiv materiallarına əsasən Şirvanşahlar sarayında ilk memarlıq ölçmə işləri ruslar tərəfindən 1807-ci ildə yerinə yetirilmişdir. Lakin bu ölçmə işləri abidənin öyrənilməsi baxımından deyil, ondan məqsədyönlü şəkildə istifadə edilməsi üçün reallaşdırılmışdır.**

Həmin vaxtdan sarayın hərbçilərə verilməsi məqsədilə kompleksə daxil olan abidələrin, eləcə də saray binasının otaqlarının təyinatını müəyyənləşdirən sxem-plan da hazırlanmışdı. Sxem-plana əsasən burada əsgər və zabitlər, eləcə də kilsədə xidmət edənlərə yataq, istirahət, dəftərxana, mətbəx, kilsə, sursat anbarlarının təşkili və əlavə olaraq inşası nəzərdə tutulurdu. Vaxtilə "Sinodun oberprokurorunun dəftərxanasında Bakı şəhərində keçmiş xan məscidi binasında pravoslav kilsəsinin düzəldilməsinə vəsait buraxılması haqqında 09.01.1812 - 15.08.1818-ci il tarixli iş" də açılmışdı. Yalnız müəyyən səbəblərdən və sonradan sarayın rus hərbi intendantlığının tabeliyinə verilməsi məscidin pravoslav kilsəsinə çevrilməsinin qarşısını almışdır. Sarayın bütün abidələrindən hərbi sursat anbarı kimi istifadə edilmişdir.

Azərbaycanın şimalı Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra saray ətraf abidələrlə birgə 1857-ci ildə Rusiya Hərbi Təsərrüfat İdarəsinin ixtiyarına verilmişdi. O zaman abidənin plan quruluşunda dəyişikliklər edilmiş, tağlar arakəsmələrlə əvəz olunmuş, abidələrə əlavə tikililər artırılmışdır. Məsələn, Bakı qubernatorunun 1892-ci il hesabatında göstərilirdi ki, "sarayın daxilində və bəzi digər tikililərində təmir və yenidənqurma işləri nəzər-diqqəti cəlb edir ki, tağbənd və günbəzlərin hər yerdə mozaik, yəni naxışlı səthləri məhv edilmiş, bəzi yerlərdə pəncərələr açılmış, digər yerlərdə - "Divanxana"da isə əksinə, keçidlər tutulmuşdur".

Kompleks XIX əsrin sonunadək baxımsız qalmışdır. Şirvanşahlar sarayı yalnız 22 dekabr 1917-ci ildə ictimaiyyətin tələbi ilə Müsəlman (Azərbaycan) Arxeoloji Cəmiyyətinin tabeliyinə təhvil verildikdən sonra Sankt-Peterburqda təhsil almış memar İsmayıl bəy Nəbi oğlu, ehtimal ki, Ömər bəy Abuyevlə birlikdə, saray kompleksinin abidələrində memarlıq ölçmə işləri aparmışdır. Həmyerlimiz, memar İsmayıl bəy Nəbi oğlu tərəfindən Keyqubad məscidinin memarlıq ölçmə işləri - işçi çertyojları təxminən 1918-1920-ci illərdə hazırlanmışdır.

1918-ci il oktyabrın 5-də Azərbaycan Xalq Cümhuriyyəti qədim abidələrin siyahıya alınması ilə əlaqədar xüsusi dekret imzalamışdır. Bu sənədin qəbulu tarixi abidələrin qorunması istiqamətində dövlət tərəfindən atılan ilk addım idi. XX əsrin 20-ci illərində kompleksin bəzi tikililərinin yalnız zahiri görkəmi ilkin görünüşünə qaytarılmışdır.

Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə 1932-1933-cü illərdə memar İ.P.Şeblıkin tərəfindən saray binasının planı çəkilmişdir. Son araşdırmalar zamanı məlum olmuşdur ki, XIX əsrin bəzi müəlliflərinin, məsələn, 1861-ci ildə Bakıda olmuş general-mayor, yazıçı baron İ.R.Xovenin yol qeydlərində, 1874-cü ildə sarayı görmüş zabit və yazıçı P.Oqorodnikovun 1878-ci ildə nəşr etdirdiyi kitabında vermiş olduğu təsvirlərə, eləcə də A.P.Boqolyubovun "Dənizçi-rəssamın qeydləri"nə görə, saray binasının giriş qapısı son dərəcə gözəl, oyma ornament şəbəkəsi ilə bəzədilmişdir. Müəlliflər otaqların fantastik oyma naxış şəbəkələrinin məhv edilməsinə təəssüfləndiklərini, bir vaxtlar sarayı görmək üçün ziyarətə gələnlərin indi burada lafetləri - top altlıqlarını, qalanmış təkərləri, paslanmış mərmi və digər artilleriya ləvazimatlarını gördüklərini qeyd etmişlər.

1932-1933-cü illərdə memar İ.P.Şeblıkinin başçılığı ilə sarayda ilk təmir işləri aparılarkən günbəz olmadığından yaşayış binasının üstü yastı tavanla örtülmüş, XIX əsrdə hörülmüş pəncərələrdən daşlar sökülmüşdü. Təmir-bərpa işləri sonralar da, XX əsrin 50-60-cı illərində də davam etdirilmişdir. Məhz bu abadlıq işlərindən sonra Şirvanşahlar sarayı qoruq-muzeyə çevrilmişdir.

Ötən əsrin 80-ci illərinin sonlarında kompleksə daxil olan saray binasının tavanının bərpasına başlanılmış, lakin işlər yarımçıq qalmışdı. Uzun müddət atmosfer sularının altında qalmış abidə uçmaq təhlükəsi ilə üzləşmişdir. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1998-ci ilin baharında saraya gəlişindən sonra bərpada əsaslı dönüş yaranmışdır. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə tarix-mədəniyyət abidələrinin mühafizəsi və bərpası istiqamətində mühüm işlər görülmüşdür. 31 may 1999-cu ildə Azərbaycan Respublikasının hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında kredit sazişi imzalanmış və Dünya Bankı bu sazişə əsasən dörd memarlıq abidəmizin: "Möminə xatın", "Qarabağlar" türbələri, Şəki xan sarayı və Şirvanşahlar sarayının bərpasına kredit ayırmışdır. Saray binasında bərpa işləri 2002-2004-cü illərdə mərhum memar-professor Niyazi Rzayevin tərtib etmiş olduğu layihə əsasında həyata keçirilmişdir. Tenderdə qalib gəlmiş italyan kampaniyası "İmpresa Pouchain" II mərtəbənin bütün otaqlarında sonradan qoyulmuş dam örtüklərini sökmüş, otaqların tağlı örtüklərini, karnizləri bərpa etmişdir. Bu bərpa işlərinin ən böyük xidməti ondan ibarət olmuşdu ki, uzun zaman açıq səma altında qalmış saray binasının məhv olmaq təhlükəsi aradan qaldırılmışdır.

2002-2003-cü illərdə kompleksin "Divanxana" adlı abidəsinin, 2004-cü ildə Şirvanşahın ailə türbəsinin, 2005-2006-cı illərdə isə saray məscidinin konservasiyası, Keyqubad məscidinin fraqmentar bərpası, saray qala divarlarının və hamamın konservasiyası həyata keçirilmişdir.

2012-2013-cü illərdə isə əsasən əvvəlki bərpanın qüsurları aradan qaldırılmışdır: divarların emulsiya qatı təmizlənmiş, saray yaşayış binasının əsas günbəzinin səthindəki əyrilik düzəldilmişdir.

Ən son 2017-ci ildə saray hamamının uçmaq təhlükəsi altında olan qəza vəziyyətli divarları sökülərək rekonstruksiya edilmişdir.

***Sevil MƏMMƏDOVA,***
***"İçərişəhər" Muzey Mərkəzinin direktor müavini, əməkdar mədəniyyət işçisi***

● Yazılı mənbələr nə deyir

# Qədim və sirli şəhər

**İçərişəhərin qala divarlarını Şirvanşah III Mənüçöhr inşa etdirib. Ancaq bəzi mənbələrdə qala divarlarının daha əvvəl də mövcud olduğu qeyd olunub.**



1950-ci illərdə qala divarları qismən bərpa edilib. Bu işlər aparılarkən qala divarlarının tikilməsinə aid bir daş parçası tapılıb. 2 metr 70 santimetr ölçüsündə olan daşın üzərində qeyd edilib ki, qala divarları Şirvanşah 3-cü Mənüçöhrün fərmanı ilə 1138-1139-cu ildə tikilib. O daşa əsasən qala divarlarının tarixi müəyyənləşib. Araşdırmalara görə, qala divarlarının uzunluğu 1500 metr, 70 yarımbürc, 600-ə yaxın mazğal olub. Bu gün isə divarlardan 500 metrə qədər hissə mövcuddur. 25 yarımbürc qalıb ki, onlar da bərpa edilib.

İçərişəhərə dair yazılı mənbələrdə qala divarlarının 3 hissədən ibarət olduğu bildirilir. Bu divarlar düşməndən qorunmaq üçün güclü sədlər idi. Mənbələrdə göstərilir ki, divarlar birbirinə paralel şəkildə tikilib və onları əhatə edən məsafə 25 metrə çatır. Düşmən hücumu zamanı aralara odun doldurulur və od vurulurdu. Qala divarları boyu düzülmüş oyuqların arasından axan yanacaq düşməni qorxudurdu.

XII əsrdə qala divarlarının ucaldılmasına Şah Axsitan qərar verir. Şəhərin içərilərinə doğru uzanan 2-ci, 3-cü divarlar sökülür, həmin daşların hesabına İçərişəhəri əhatə etmiş qala divarları 8-12 metr hündürlüyə qaldırılır. Araşdırıcılar İçərişəhərin dar dalanlarının orta əsrlərdə düşməni məhv etmək üçün vasitə sayıldığını da bildirirlər.

İçərişəhərin tarixi ötən əsrin 20-ci illərindən öyrənilməyə başlayıb. Tədqiqatlar davam edir və hələ də açılmamış çox sirlər qalıb. Şəhərdə öyrənilməli maddi-mədəni nümunələr çoxdur.

Yazılı kitabələrə İçərişəhərin bir çox yerlərində rast gəlinir. Kitabələr bu əsrarəngiz, qədim şəhərin tarixi barədə məlumatlar verir. Onlardan birində - Cümə məscidinin həyətində divara vurulmuş daş kitabədə əhalinin həyatında önəm daşıyan hadisə haqqında məlumat yazılıb.

İçərişəhər 22 min hektara qədər ərazini əhatə edir. Keçmişdə şəhərin aşağı və yuxarı məhəllələrində 28 məscid, 28 hamam, karvansaralar olub. Orta əsrdə tikilmiş hamamların quruluşu, burada istiliyin təmin olunması çox unikaldır. Burada yerləşən və bərpa olunan Məhəmməd məscidi dünya tarixində bu günə qədər minarəsi salamat qalmış 4 qədim məsciddən biridir. Hicri 471, miladi təqvimlə isə 1078-1079-cu illərdə inşa olunmuş bu məscid indinin özündə də gələn turistləri heyran edir.

Sovet dövründə İçərişəhərin küçələrinə asfalt örtüyü çəkilib. Lakin sonradan küçələrdəki asfalt qatı çıxarılaraq daş döşənib.

İçərişəhərin məhəllələri keçmişdə orada yaşayan məşhurlarla tanınıb. Səlimxanovlar, Hacınskilər, Ramazanovlar, Xanlarovlar, Babayevlər orta əsrlərdən burada məskunlaşan nəsillərdəndir. Varlı nəsillər gəlirlərinin xeyli hissəsini möhtəşəm binalar tikməyə sərf ediblər. Bu binalar indi də İçərişəhərə xüsusi gözəllik verir.

Yerli əhalinin həyatında papaqçılıq, şirniyyatçılıq, başmaqçılıq və başqa peşə sahələri də əhəmiyyətli rol oynayıb. Burada xırda sənətkarlara indi də rast gəlmək mümkündür. İçərişəhərin qədim ənənələrinin bir çoxu bu gün də yaşadılır.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

● İrs

# Ənənələri qoruyub yaşadan mərkəz

**"İçərişəhər" Ənənəvi İncəsənət Mərkəzi Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2012-ci ildə təsis edilib. Mərkəz "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə Birləşmiş Krallıqda yerləşən Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbi arasında həyata keçirilən birgə layihənin nəticəsidir.**



Mərkəz beş fərqli dekorativ tətbiqi sənət növündə (keramika, batika, zərgərlik, taxta və dekorativ rəngkarlıq) sənətkarlıq nümunələrinin hazırlandığı, bu növlər üzrə müxtəlif yaş qruplarına aid fərdi və kollektiv şəkildə ustad dərslərinin keçirildiyi incəsənət mərkəzidir. Burada qədim prinsiplərlə çağdaş dövr arasında vəhdətin qorunması əsas meyardır.

"İçərişəhər" Ənənəvi İncəsənət Mərkəzi Bəylər məscidinin bərpasını və Şirvanşahlar taxt-tacının dizaynının hazırlanmasını da həyata keçirmişdir.

Mərkəzdə hazırlanan bütün sənətkarlıq nümunələri "Dastan" brendi ilə təqdim olunur. Brend 24 Dekabr 2016-cı ildə yaradılıb. "Dastan" sözü qədim Azərbaycan ədəbiyyatına aid olan eposlardan götürülüb. 5 fərqli istiqamət üzrə hazırlanan bütün sənətkarlıq nümunələri üçün təbii boyalar, ənənəvi üsullar üzrə istifadə olunur və bədii tərtibatlar mərkəzin dizaynerlər qrupu tərəfindən hazırlanır. Hər bir məhsulun dizaynı, hazırlanması ümumilikdə bir neçə ay davam edir. Bədii tərtibat üçün Azərbaycan ərazisində mövcud olan qədim dövr və orta əsrlərə aid memarlıq abidələrinin, dekorativ tətbiqi sənət nümunələrinin bədii xüsusiyyətləri nəzərə alınır.

***"Azərbaycan"***

# Ordumuzun Aprel zəfərindən ermənilər nəticə çıxarmalıdırlar

## Əks təqdirdə daha ciddi dərs alacaqlar



Tarixin döyüş və zəfər salnaməli səhifələri az olmayıb. Ermənistanın 1988-ci ildən Azərbaycana qarşı qeyri-qanuni ərazi iddiaları ilə bağlı başladığı elan olunmamış müharibə xalqımıza mənəvi, yenicə müstəqilliyini bərpa etmiş dövlətimizə isə arxadan vurulan zərbə oldu.

Xalq o ağır günlərdə Ulu Öndər Heydər Əliyevi heç də təsadüfi yerə köməyə çağırmırdı. Ümummilli Lider gəldi, həm də necə? Cəbhənin Füzuli istiqamətində gedən ağır döyüşlər zamanı hər qarış Vətən torpağının azad edilməsi uğrunda ölüm-dirim savaşına atılan, təcrübəsiz olsa da, qeyrətinə və dövlətinə, xüsusən də Ulu Öndərin siyasətinə güvənən Azərbaycan əsgərinin əks-hücuma keçməsi həlledici rol oynadı. Həmin istiqamətdə ordumuz düşmənə "öz yerini göstərdi" - xeyli ərazi Horadiz də daxil olmaqla düşmən əsarətindən xilas edildi. Bu hücuma tab gətirməyən Ermənistan havadarlarını köməyə, atəşkəs elan etməyə çağırdı. Beləliklə, 1994-cü ildən atəşkəs elan edildi. Buna baxmayaraq, riyakar Ermənistan özünün təcavüzkar və işğalçılıq siyasətinə son qoymadı, əksinə, hər gün ön cəbhədə atəşkəs rejimini pozaraq, dinc əhalimizə - uşaqlara, qoca və yaşlılara da atəş açmaqdan çəkinmədi. Görünür, "Aprel zəfəri" üçün "burunları gicişirdi".

2 aprel 2016-cı il münaqişə və müharibə şəraitində olan tərəflərin hərb tarixinə müxtəlif rəngdə yazıldı: Azərbaycan qalib gəldi. Ermənistan məğlubiyyət dərsi aldı.

"Aprel döyüşləri tariximizin şanlı səhifəsidir". Bunu ölkə rəhbərimiz, Ali Baş Komandan İlham Əliyev də öz çıxışında vurğuladı: "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır".

Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş verdi. Gün ərzində Azərbaycanın cəbhə boyu mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Nəticədə 2 dinc sakin öldü, 10 nəfər yaralandı, infrastruktur obyektləri zədələndi, evlər dağıdıldı, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəydi. Bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirləri həyata keçirildi. Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" adlandırılan yüksəklik düşməndən azad edildi. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi.

Hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis-texniki qurğuları məhv edildi, 320 erməni döyüşçüsü öldürüldü və 500-dən artıq döyüşçü isə ağır yaralandı.

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əhalinin təhlükəsiz yaşaması təmin edildi. Bununla da tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işləri görüldü.

Əslində, bu döyüşlər Azərbaycanın öz torpaqlarını işğalçı qoşunlardan təmizləmək qüdrətində olduğunu sübuta yetirdi. Hadisələr bir daha təsdiqlədi ki, işğalçıya yerini göstərmək üçün ən yaxşı təsir vasitəsi gücdür. Həmin döyüşlərdən sonra Ermənistan silahlı qüvvələrində çaxnaşma yarandı. Müdafiə naziri Seyran Ohanyan tutduğu vəzifədən azad edildi, işğalçı orduya rəhbərlik edən generalların xeyli hissəsi işdən qovuldu. Bu hadisə işğalçı ordu və onun havadarları barəsində yaradılan mifi dağıtdı. Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrini işğal altında saxlayan Ermənistanın əsl mahiyyəti üzə çıxdı.

Aprel döyüşlərindəki məğlubiyyətdən sonra erməni təbliğatçıları Ermənistan cəmiyyətində ruh yüksəkliyi yaratmaq üçün Türkiyə və Azərbaycan torpaqlarına iddialarını bir daha açıq formada göstərdilər. Ancaq bununla belə Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlardan sonra Ermənistanda Rusiyaya qarşı çıxışlar da artdı. Yerevanda və Los-Ancelesdə ermənilər Rusiya əleyhinə aksiyalar keçirdilər. Həmin aksiyada "İşğalçı Rusiya, Ermənistanı tərk et!", "Rusiya imperiyadır!" şüarları səsləndi.

Aprel zəfəri Azərbaycan ictimaiyyətində geniş rezonans doğurdu.

Şanlı bir zəfər - 24 il sonra ermənilərə böyük bir zərbə vurulmuşdu! Ermənistan tərəfi yüzlərlə itki vermişdi. 4 gün davam edən döyüşlərdə Azərbaycan tərəfi gücünü göstərmişdi. Ermənistanı qorxu bürümüşdü. Çünki Azərbaycan ayağa qalxmışdı. Bütün gənclər küçələrə axışmışdı. Aprel döyüşləri sübut etdi ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan Ermənistanı və havadarlarını Azərbaycan hərbi yolla cəzalandıra, işğalçı siyasətdən çəkindirə bilər. Çünki işğal olunmuş torpaqlarını qanı bahasına da olsa geri qaytarmaq gücünə malikdir!

Nəhayət, Aprel dərslərindən ermənilər nəticə çıxarmalı, regionun təhlükəsizliyi, özünün isə iqtisadi inkişafında böyük əngəl olan münaqişənin həllində Azərbaycanla oyun oynamamalıdır, havadarlarının çaldığı havaya oynamağa öyrəncəkli olsalar da...

İndi işğalçı ölkənin xarici işlər naziri zəbt etdikləri torpaqlarımızı azad etməyəcəklərini bildirir. Onlara ordumuzun Aprel zəfərini bir daha xatırladırıq. Əgər erməni quldurları torpaqlarımızı tərk etməsələr, ikinci bir Aprel dərsi alacaqlar, özü də daha güclüsünü.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Beynəlxalq aləm



## Yəməndə qiyamçıların üç hərbi birləşməsi məhv edildi

Yəmən ordusu Mərib əyalətində qiyamçı "Ənsar Allah" hərəkatının (hövsilər) üç hərbi birləşməsini məhv etmişdir. Bu barədə əyalətindəki hökumət qoşunlarının komandiri, general Əhməd Əbu Usbə məlumat vermişdir.

Əbu Usbənin dediyinə görə, ötən həftə hökumət qoşunları hövsilərin hücumlarını dəf etmişdir. Qiyamçılar ağır tələfat vermişlər. Hökumət qüvvələri hövsilərin əyalətdə hücum planlaşdıran üç hərbi birləşməsini məhv etmişdir.

Qiyamçılar bu məlumatı hələ ki şərh etməmişlər.

## ÜST COVID-19-la mübarizəni gücləndirmək planını açıqladı




Koronavirusla mübarizəni sürətləndirmək üçün gələn ayın əvvəllərində pul toplanması başlayacaq. "Röyter" agentliyinin verdiyi xəbərə görə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) direktoru Tedros Adhanom Gebreyesus bildirmişdir ki, səylər birləşdirilməli və bütün yeni vaksinlər, diaqnostika və müalicə vasitələri dünyada hamı üçün eyni dərəcədə əlçatan olmalıdır.

Gebreyesusun dediyinə görə, təcrübə göstərir ki, dava-dərman heç də həmişə hamı üçün eyni dərəcədə əlçatan olmur: "Biz belə vəziyyətin yaranmasına imkan verə bilmərik. COVID-19 ümumi təhlükədir, onu yalnız birgə səylərlə məğlub edə bilərik".

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen vəsait toplamaq ideyasını şərh edərkən bildirmişdir ki, vaksinin yalnız icad edilmiş ölkədə əlçatan olması bağışlanmaz hal olardı.

ABŞ ÜST-ün bu təşəbbüsünə qoşulmamaq qərarına gəlmişdir.

## Vaşinqton və Pekin G20-nin konfransını pozdular



ABŞ və Çin Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) üstündə mübahisə üzündən G20-nin üzvü olan ölkələrin liderlərinin videokonfransını pozmuşlar. Bu barədə "South China Morning Post" qəzeti xəbər verir.

Qəzet yazır ki, Vaşinqton ÜST-dən koronavirus epidemiyası başlayanda gördüyü tədbirlər barədə hesabat verməkdə israr edirdi. Amma Pekin belə bir təklifə qarşı çıxmışdı. Nəticədə videokonfrans son məqamda ləğv edilmişdir. Nəşrin istinad etdiyi mənbə bildirmişdir ki, ABŞ və Çin bu məsələdə kompromis əldə etsələr, danışıqlar yaxın gələcəkdə başlaya bilər.

## "Air France" hökumətdən 7 milyard avro alacaq



Koronavirus böhranı ilə əlaqədar Fransa hökuməti "Air France" aviasiya şirkətini dəstəkləmək üçün 7 milyard avro ayıracaq. Məbləğin 3 milyardını dövlət təqdim edəcək, qalan 4 milyardı banklardan zəmanətli kredit yardımı olacaq. Bu barədə ölkənin Maliyyə naziri Brüno Le Mer məlumat vermişdir. Le Merə görə, "Air France"nin milliləşdirilməsi planlaşdırılmır. Bundan əlavə, Fransa hökuməti "Renault" konserninə 5 milyard avro məbləğində yardım paketi hazırlayır.

Öz növbəsində Hollandiya hökuməti KLM aviaşirkətinə 2-4 milyard avro ödəmək niyyətindədir. KLM "Air France" ilə birlikdə dünyanın ən böyük aviasiya şirkətlərindən biri ("Air France-KLM") sayılır.

## ABŞ-ın daha bir hərbi gəmisində COVID-19 aşkarlandı

ABŞ Hərbi Dəniz Qüvvələrinin "Kidd" gəmisində yeni tip koronavirusa azı 18 yoluxma halı aşkar edilmişdir. Bu barədə hərbi donanmanın Mətbuat xidməti məlumat vermişdir.

Gəmidə ümumilikdə 330-a yaxın dənizçi var. Pentaqonun rəsmi nümayəndəsi Conatan Hoffmanın dediyinə görə, gəmi limana qayıtmağa hazırlaşır. O əlavə etmişdir ki, səkkiz hərbi həkimdən ibarət briqada "Kidd"ə getmişdir.

"Kidd" Karib dənizində narkotiklərlə mübarizə missiyasında iştirak edir.

Bundan əvvəl "Teodor Ruzvelt" təyyarədaşıyan gəmisində COVID-19-a yoluxma halları qeydə alınmışdır. Ötən ayın axırlarında gəmi təcili olaraq Sakit okeanın qərbində yerləşən Quam adasındakı bazaya göndərilmişdir. İndi məlum olmuşdur ki, "Teodor Ruzvelt"in 856 dənizçisi koronavirusa yoluxmuşdur

Son məlumata görə, hazırda ABŞ-ın liman və tərsanələrində yerləşən 26 hərbi gəmidə COVID-19-a yoluxma faktları qeydə alınmışdır. Daha 14 gəmidə yoluxma hadisələri baş vermiş, lakin xəstələr sağalmışlar.

## Bu günə gözlənilən hava proqnozu açıqlanıb

Ölkə ərazisində aprelin bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 7-10°, gündüz 14-18° isti, Bakıda gecə 7-9°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-50 faiz təşkil edəcək.

Aprelin 26-da Azərbaycanın rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq, qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 16-21° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 12-17° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında arabir yağış, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam arabir yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 13-18° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman, çiskin olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 16-21° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-8°, gündüz 13-18° isti, dağlarda gecə 0-3°, gündüz 4-7° isti olacağı bildirilir.


## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi

### *açıq tender elan edir*

Tender predmeti:

- Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsi, respublikanın şəhər və rayon qeydiyyat şöbələrində, notariat ofislərində 2020-ci ildə istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının elektron satın alınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2020-ci il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 300 (üç yüz) manat məbləğində iştirak haqqını "Asan Ödəniş" vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi**

**Hesab №: AZ61CTRE00000000000002088403**
**VÖEN: 1300498771**

**Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderde iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı* ***(01.04.2020-ci il tarixdən sonra alınmalıdır)****;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.04.2020-ci il tarixdən sonra alınmalıdır)****;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri (notarial qaydada təsdiq olunmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 may 2020-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **01 iyun 2020-ci il saat 13:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **02 iyun 2020-ci il tarixdə saat 13:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsi ilə tanış ola bilərlər.

E-şərtlər toplusunu 25 aprel 2020-ci il saat 20:00-dan sonra əldə etmək olar.

Elektron açıq tender üsulu ilə keçirilən müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun aparılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ceyhun Cəfərov və Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlıya anası

**YAQUT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göygöldən Arif Seyidov Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qusardan Şair Alxasov Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7375
Sifariş 931
Qiyməti 40 qəpik